

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET    № 55 (7310) / Cümə, 29 mart 2019-cu il


## PREZİDENTDƏN SAHİBKARLARA DƏSTƏK:

# Bir daha demək istəyirəm ki, dövlət onların yanında olacaq



⇨ Bax: səh. 2

## Prezident İlham Əliyev Avstriyada işgüzar səfərdədir



⇨ Bax: səh. 3

⇧ Bax: səh. 3

## Prezident İlham Əliyev Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətlərinin şəxsi heyətini təbrik edib



⇧ Bax: səh. 4



## "Diqlas" ticarət mərkəzində baş vermiş yanğın Prezident tərəfindən xüsusi nəzarətə götürülüb

⇧ Bax: səh. 4



## SOCAR: TANAP üzrə ümumi irəliləyiş 99,5 faizə çatdırılıb

## Qərbin demokratik dəyərlərə ikili standartlardan yanaşma siyasəti




⇨ Bax: səh. 14

⇧ Bax: səh. 4



## "İmadəddin Nəsimi və özbək ədəbiyyatı"

⇧ Bax: səh. 9



## Vyana görüşü Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində dönüş yaradacaqmı?

⇧ Bax: səh. 5



*Vüqar Bayramov:*

## Manatla krediti olanlara da güzəştlər tətbiq ediləcək


**7** Azərbaycan-Belarus strateji müttəfiqliyi fonunda erməni mediasının "dalay-dalay" çarəsizliyi...

**9** ERMƏNİSTANDAKI SON DURUM: yeni hakimiyyəti sıxan geosiyasi şərtlər və Azərbaycanla razılaşmaq məcburiyyəti...

**16** Yer üzündə 5 saniyə oksigen olmasa nə baş verər?

PREZİDENTDƏN SAHİBKARLARA DƏSTƏK:

# Bir daha demək istəyirəm ki, dövlət onların yanında olacaq

*Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib*



**Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar martın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, dövlətimizin başçısı müşavirədə çıxış etdi.

- Martın 26-da ticarət mərkəzlərinin birində yanğın baş vermişdir. Xoşbəxtlikdən insan itkisi olmamışdır. Ancaq o ticarət mərkəzində çalışan insanlara maddi ziyan dəymişdir. Yanğının səbəbləri araşdırılır, bu gün ilkin məlumat veriləcəkdir və əminəm ki, tam araşdırılacaqdır. Eyni zamanda, biz sahibkarların problemlərini həll etməliyik. Onlar öz iş yerlərini, öz əmlakını itiriblər. Onlara maddi ziyan dəyib. Bəziləri borc alıb və orada malları satışa çıxarıblar. Ona görə, əlbəttə ki, biz bu insanlara dövlət olaraq öz dəstəyimizi göstərəcəyik.

Dünən Nizami Rayon İcra Hakimiyyətində sahibkarlarla görüş keçirilib. Bu gün səhər ikinci görüş keçirilib və onlara deyilib ki, dövlət onlara dəstək və yardım göstərəcəkdir. Belə hadisələr baş verir. Əlbəttə ki, səbəblər tam araşdırılmalıdır və operativ olaraq dövlət sahibkarlara öz maddi yardımını göstərməlidir. İqtisadiyyat Nazirliyi ticarət mərkəzində çalışan sahibkarlarla birbir görüşməlidir, onların problemlərini dinləməlidir və onlara dəstək göstərməlidir. Maliyyə Nazirliyi operativ olaraq, ilkin maliyyə vəsaiti ayırmalıdır ki, sahibkarlara bu vəsaitin verilməsi təmin edilsin. Bununla bərabər, İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi yanmış malların qiymətini sahibkarlarla birlikdə araşdırmalıdır, aydınlaşdırmalıdır və bizdə bu məsələ ilə bağlı dəqiq məlumat olmalıdır.

Adətən inkişaf etmiş ölkələrdə belə hadisələr baş verdikdə burada bütün maliyyə yükünü sığorta şirkətləri öz üzərinə götürür, bütün mallar sığortalanır. Ancaq əfsuslar olsun ki, Azərbaycanda sığorta sahəsində boşluqlar var və bir çox hallarda biz bunu görürük. Misal üçün, bu yaxınlarda Şamaxı, İsmayıllı, Ağsu rayonlarında baş vermiş zəlzələ nəticəsində minlərlə evə ziyan dəyib və heç bir ev sığortalanmayıb. Təbii ki, dövlət öz dəstəyini göstərir və göstərməlidir. Artıq evlərin tikintisi başlamışdır və bu ayın əvvəlində birinci evlərin vətəndaşlara təqdimetmə mərasimi keçirilmişdir. Bütövlükdə, sahibkarlara məsləhət görülür ki, onlar öz əmlakını sığortalatsınlar. Belə olan halda tam əmin ola bilərlər ki, bədbəxt hadisə baş verdikdə onların əmlakı batmayacaq.

Azərbaycan çox güclü sosial siyasət aparır. Bu siyasət özünü müxtəlif sahələrdə büruzə verir. Bildiyiniz kimi, bu ilin əvvəlində çox ciddi və böyük sosial paket təsdiqləndi. Sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan bu proqramla əhatə olunur. Deyə bilərəm ki, dünyada belə bir təşəbbüsün bənzəri yoxdur. Təbii fəlakət - zəlzələ, daşqın vaxtı hər zaman vətəndaşın yanında ilk olan dövlətdir. Bu, bizim siyasətimizdir, biz bu siyasətə sadiqik və bunu bütün sahələrdə aparacağıq. Ona görə, baş vermiş yanğınla bağlı, əlbəttə ki, ilk növbədə, biz burada əziyyət çəkən, maddi ziyan dəyən sahibkarların vəziyyətini başa düşməliyik, onlara kömək göstərməliyik və göstərəcəyik.

Məsələni tam araşdırıb təklifləri vermək üçün komissiya yaradılacaq. Əlbəttə ki, komissiya bir müddət işləyəcək. Ancaq biz operativ olaraq sahibkarlara ilkin mərhələdə maddi dəstək göstərməliyik ki, onlar bu vəziyyətdən çıxa bilsinlər. Gələcəkdə onları işlə təmin etmək üçün müvafiq addımlar atılacaq. O ki qaldı, ticarət mərkəzinin sahibkarlarının fəaliyyətinə, əlbəttə ki, onlar dövlət tərəfindən sahibkarlara veriləcək məbləğin ödənilməsini tam təmin etməlidirlər və edəcəklər. Ancaq nəzərə alsaq ki, biz istəyirik məsələ tezliklə öz həllini tapsın, bu məqsədlə, yenə də dediyim kimi, dövlət dərhal öz dəstəyini göstərməlidir.

Sonra fövqəladə hallar naziri Kəmaləddin HEYDƏROV yanğının başvermə səbəbləri, əhatə dairəsi və həyata keçirilən təxirəsalınmaz tədbirlər barədə Prezident İlham Əliyevə məlumat verdi. Nazir bildirdi ki, hadisədən dərhal sonra operativ olaraq yanğınsöndürənlər hadisə yerinə yaxınlaşıb və ilkin tədbirlər həyata keçirilib.

Yanğının mənbəyinin ticarət mərkəzindən kənarda yerləşən və qanunsuz inşa olunan dönərxanadan başladığını deyən Kəmaləddin Heydərov qeyd etdi ki, yanğının başvermə anı Daxili İşlər Nazirliyinin müşahidə kameralarında da əks olunub. Yanğının söndürülməsinə 35 yanğınsöndürən maşının və 3 helikopterin cəlb olunduğunu deyən nazir bildirdi ki, ticarət mərkəzində yanğın təhlükəsizliyi qaydalarına indiyədək əməl olunmayıb. Kəmaləddin Heydərov dedi ki, Fövqəladə Hallar Nazirliyi tərəfindən 2015-ci ildən başlayaraq ticarət mərkəzinə və rayon icra hakimiyyətinə müvafiq müraciətlərin olunmasına baxmayaraq, burada yanğın təhlükəsizliyi və digər təhlükəsizlik tədbirləri görülməyib və bu məqsədlə tələb olunan hidrantlar qoyulmayıb. Malların anbarlarda düzgün yerləşdirilməməsi və binanın alkaponla üzlənməsi yanğının daha da şiddətlənməsinə səbəb olub.

Nazir hadisənin fəsadlarının aradan qaldırılması və yanğının ətraf binalara keçməməsi üçün bütün lazımi tədbirlərin operativ görüldüyünü vurğuladı. O, hadisənin başvermə səbəblərinin araşdırılması məqsədilə qanunvericiliyə uyğun olaraq zəruri tədbirlərin görüləcəyini və əldə edilən ilkin materialların komissiyaya təqdim ediləcəyini bildirdi.

Baş prokuror Zakir QARALOV hadisə baş verən andan müvafiq qurumların birgə səyləri nəticəsində vəziyyətin nəzarətə alındığını, insanların həmin ərazidən təxliyə edildiyini bildirdi. Baş prokuror hadisə ilə bağlı Cinayət Məcəlləsinin 225-ci maddəsi üzrə cinayət işinin qaldırıldığını, yanğın-texniki, tikinti-texniki, fiziki-kimyəvi və əmtəəşünaslıq ekspertizalarının təyin olunduğunu dedi, qısa vaxtda yaranmış istintaq-əməliyyat qrupu tərəfindən bu ekspertizaların həyata keçiriləcəyini vurğuladı. Zakir Qaralov hadisə ilə bağlı sahibkarların dindirilməsi və ilkin ifadələrinin alınması istiqamətində işlərin görüləcəyini qeyd etdi, istintaqın gedişi ilə bağlı vaxtaşırı dövlətimizin başçısına məlumat veriləcəyini bildirdi.

Daxili işlər naziri Ramil USUBOV məlumat verərək dedi ki, yanğın baş verdikdən dərhal sonra Daxili İşlər Nazirliyinin və Baş Polis İdarəsinin rəhbərliyi və şəxsi heyəti hadisə yerinə gedib və qarşıda duran vəzifələrlə bağlı operativ tədbirlər görülüb. Belə ki, yol polisi əməkdaşları yanğınsöndürənlərin hadisə yerinə vaxtında və maneəsiz çatmaları üçün lazımi şərait yaradıb, 400 nəfərdən çox polis əməkdaşı hadisə yerində təhlükəsizlik tədbirlərinin təmin olunmasına cəlb edilib, əhalinin oradan uzaqlaşdırılması, nəqliyyatın hərəkətinin məhdudlaşdırılması ilə bağlı zəruri tədbirlər görülüb. Ramil Usubov yanğının baş verməsi ilə bağlı müşahidə kameralarının qeydlərinin müvafiq qurumlara təqdim olunduğunu bildirdi. Dövlətimizin başçısının tapşırığı ilə yaradılan komissiyanın tərkibində Daxili İşlər Nazirliyi əməkdaşlarının da təmsil olunacağını vurğulayan nazir tapşırıqların yüksək səviyyədə həyata keçiriləcəyini qeyd etdi.

İqtisadiyyat naziri Şahin MUSTAFAYEV dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq bir sıra addımların atılacağını bildirdi. Nazir ticarət mərkəzində icarədə olan sahibkarlara dəyən ziyanın müəyyənləşdirilməsi ilə bağlı görüşlərin keçirildiyini və ziyanla əlaqədar ilkin məlumatların alındığını diqqətə çatdırdı. O, sahibkarlara bir neçə istiqamətdə ilkin dövlət dəstəyinin göstəriləcəyini, müəyyən halda güzəştli kreditlərdən istifadə ilə bağlı mexanizm üzərində də işlənildiyini, sahibkarların yeni ticarət mərkəzi tikilənə qədər digər ticarət mərkəzlərində yerləşdirilməsi istiqamətində işlərin aparıldığını vurğuladı.

Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif QASIMOV yanğınla əlaqədar yerli icra hakimiyyəti tərəfindən həyata keçirilən tədbirlər barədə məlumat verdi. O, dünən və bu gün sahibkarlarla operativ görüşdüklərini, dəyən ziyanın aradan qaldırılması məqsədilə dövlət tərəfindən ilkin maliyyə dəstəyinin göstərilməsi ilə bağlı Prezidentin tapşırıqlarını onlara çatdırdıqlarını dedi və sahibkarların bu xəbəri yüksək minnətdarlıq hissi ilə qarşıladıqlarını vurğuladı.

Müşavirəyə yekun vuran Prezident İlham ƏLİYEV dedi:

-Bir daha demək istəyirəm ki, ilk növbədə, yanğının səbəbləri tam araşdırılmalıdır. İlkin versiyalar var. Kamera müşahidəsi də deməyə əsas verir ki, yanğın haradan başlayıb. Bunu nəzərə alaraq yekun rəy əlbəttə ki, təqdim olunacaq. Eyni zamanda, bütün ticarət mərkəzlərində ciddi təftiş işləri aparılmalıdır, təhlükəsizlik tədbirləri gücləndirilməlidir. Fövqəladə Hallar Nazirliyi və digər aidiyyəti qurumlar, Bakı Şəhər İcra Hakimiyyəti, rayon, şəhər icra hakimiyyətləri bu işlərlə çox ciddi məşğul olmalıdırlar. Təhlükəsizliklə bağlı olan bütün məsələlər ən yüksək standartlarda təmin edilməlidir.

Sahibkarlara gəldikdə, bir daha demək istəyirəm ki, dövlət onların yanında olacaq. Onlara artıq bu məlumat verildi. Maliyyə dəstəyinin göstərilməsi operativ qaydada təşkil edilməlidir və müvafiq göstəriş verilib. Eyni zamanda, burada da qeyd olunduğu kimi, onlara güzəştli şərtlərlə kreditlər verilməlidir, dəymiş ziyan dəqiq hesablanmalıdır. Onların bu gün fəaliyyətdə olan digər ticarət mərkəzlərində yerləşdirilməsi ilə bağlı tədbirlər görülməlidir ki, işsiz qalmasınlar.

Beləliklə, hesab edirəm, görülmüş və görüləcək tədbirlər nəticəsində sahibkarlar bir daha görəcəklər ki, dövlət hər zaman onları dəstəkləyir. Azərbaycanda sahibkarlığın inkişafı geniş vüsət alıb və ölkəmizin gələcək, uzunmüddətli, dayanıqlı inkişafı böyük dərəcədə sahibkarların fəaliyyəti ilə bağlıdır. Azərbaycanda indi sahibkarlar sinfi yaradılıb. Sahibkarlar müxtəlif sahələrdə - həm istehsalda, xidmət və ticarət sektorlarında çox fəal işləyirlər. Əlbəttə ki, dövlət onlara həm siyasi dəstək, həm də maliyyə dəstəyi verir. Bildiyiniz kimi, güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilmişdir. Ağır günlərdə, bədbəxt hadisə baş verdikdə dövlət hər zaman onların yanındadır və onların yanında olacaqdır.

Qeyd etdiyim kimi, komissiya tezliklə fəaliyyətə başlamalıdır, bütün bu məsələləri araşdırmalıdır və yekun rəy təqdim etməlidir. Sağ olun.

# Prezident İlham Əliyev Avstriyada işgüzar səfərdədir





**AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Avstriya Respublikasına işgüzar səfərə gəlib.**

### Prezident İlham Əliyev Avstriyanın vitse-kansleri ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Vyanada Avstriya Respublikasının vitse-kansleri Haynts-Kristian Ştraxe ilə görüşüb.

Avstriyanın vitse-kansleri ilə Bakıda keçirdiyi görüşü məmnuniyyətlə xatırladan dövlətimizin başçısı həmin görüşdə ikitərəfli əməkdaşlığa dair geniş fikir mübadiləsi aparıldığını dedi. Azərbaycan-Avstriya münasibətlərinin, o cümlədən siyasi və iqtisadi əlaqələrin uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev bu ölkəyə səfərinin, həmçinin vitse-kanslerlə görüşünün əməkdaşlığın genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıdığını vurğuladı.

Avstriya Respublikasının vitse-kansleri Haynts-Kristian Ştraxe ölkəmizə səfəri çərçivəsində Prezident İlham Əliyev ilə görüşünün və apardığı səmərəli müzakirələrin ölkələrimiz arasında əlaqələrin inkişafına təkan verdiyini ifadə etdi.

Söhbət zamanı Azərbaycan ilə Avstriya arasında iqtisadi-ticarət münasibətlərinin genişləndirilməsi məqsədilə əməkdaşlıq formatlarının yaradılması təşəbbüslərinə toxunuldu, bu çərçivədə iki ölkənin dövlət qurumları və işgüzar dairələri arasında əlaqələrin genişləndirilməsinin önəmi vurğulandı.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıldı.

### "Diqlas" ticarət mərkəzindəki yanğınla əlaqədar Komissiya yaradılacaq

Prezident İlham Əliyev Bakı şəhərinin Nizami rayonu ərazisində "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Komissiyanın yaradılması haqqında Sərəncam imzalayıb.

2019-cu ilin mart ayının 26-da Bakı şəhərinin Nizami rayonu ərazisində "Diqlas" ticarət mərkəzində baş vermiş yanğın nəticəsində sahibkarlara külli miqdarda ziyan dəyib.

Dövlətimizin başçısı baş vermiş hadisənin səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədilə Nazirlər Kabinetinə "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Komissiya yaratmağı, görülmüş işlər haqqında mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat verməyi tapşırıb.

Sərəncam imzalandığı gündən qüvvəyə minir.

### Şəmsəddin Xanbabayev "Əmək" ordeni ilə təltif edilib

Prezident İlham Əliyev Şəmsəddin Xanbabayevin 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Şəmsəddin Hüseynqulu oğlu Xanbabayev 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

### Nərimanov rayonunda avtomobil yollarının yenidən qurulmasına 6,3 milyon manat ayrılıb

Prezident İlham Əliyev Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda deyilir ki, Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 6,3 milyon (altı milyon üç yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyi göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

## Prezident İlham Əliyev Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətlərinin şəxsi heyətini təbrik edib

**Prezident İlham Əliyev Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətlərinin şəxsi heyətinə təbrik ünvanlayıb. Təbrikdə deyilir: "Hörmətli Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətlərinin əməkdaşları və veteranları!**



Sizi Azərbaycanda təhlükəsizlik və kəşfiyyat orqanlarının yaradılmasının 100 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

1919-cu il martın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin kəşfiyyat və əks-kəşfiyyat qurumu kimi fəaliyyətə başlamış xüsusi xidmət orqanlarımız mürəkkəb inkişaf yolu keçmişlər.

Sovet İttifaqı dövründə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizin təhlükəsizlik orqanlarının xalqımızın maraqlarına xidmət göstərməsini təmin etmiş və peşəkar milli kadrların yetişməsinə əvəzsiz töhfə vermişdir.

1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycan çox ciddi təhlükələrlə - ilk növbədə, Ermənistanın təcavüzü ilə, habelə terrorçuluq, separatçılıq, dərin siyasi və sosial-iqtisadi böhranla üzləşmişdir. Dövlətçiliyimizin təhlükə altında olduğu belə bir vəziyyətdə Azərbaycan xalqı müdrik qərar qəbul edərək, ölkəyə rəhbərliyi ümummilli lider Heydər Əliyevə etibar etdi.

Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev ölkəmizi parçalanmaq və müstəqilliyini yenidən itirmək təhlükəsindən qurtardı, ictimai-siyasi sabitliyi təmin etdi. Məhz Ümummilli Liderin səyləri nəticəsində zəngin dövlətçilik ənənələrimiz bərpa olundu, dünyəvi, demokratik və hüquqi dövlətin təməli qoyuldu, ölkəmiz dünya arenasında bərabərhüquqlu etibarlı tərəfdaş kimi tanındı.

Bu dövrdə Ulu Öndər Azərbaycanın milli təhlükəsizliyinin təmin edilməsinin başlıca istiqamətlərini müəyyən etdi, dövləti xarici və daxili təhdidlərdən qorumağa qadir olan xüsusi xidmət orqanları sistemini formalaşdırdı.

Xüsusi xidmət orqanlarının müasir dövrün çağırışlarına uyğun inkişafını təmin etmək və fəaliyyətinin səmərəliliyini artırmaq məqsədi ilə 2015-ci ildə mühüm islahatlar aparılmış, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətləri yaradılmışdır. Xidmətlər yüksək peşəkarlığı ilə seçilən kadrlarla komplektləşdirilmiş, müasir informasiya texnologiyaları ilə təchiz edilmiş, onların maddi-texniki bazası və əməkdaşlarının sosial müdafiəsi gücləndirilmişdir.

Bu gün xüsusi xidmət orqanları Azərbaycanın milli maraqlarının təmin olunması, konstitusiya quruluşunun qorunması, dövlət qərarlarının informasiya təminatının həyata keçirilməsi, habelə terrorçuluğa, separatçılığa, dini ekstremizmə, transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə və digər sahələrdə uğurla fəaliyyət göstərirlər.

Dünyada və regionda gedən proseslərin sülh və təhlükəsizlik üçün yaratdığı təhdidlər beynəlxalq əməkdaşlığın əhəmiyyətini daha da artırır. Xüsusi xidmət orqanlarımız bir çox xarici dövlətlərin tərəfdaş qurumları ilə strateji xarakter daşıyan əlaqələr qurmuşdur və bu səmərəli əməkdaşlıq nəticəsində regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsinə dəyərli töhfə verirlər. Biz bu tərəfdaşlığı yüksək qiymətləndiririk və onun daha da dərinləşməsində maraqlıyıq.

Əminəm ki, xüsusi xidmət orqanlarımız qarşıya qoyulmuş vəzifələrin öhdəsindən bundan sonra da layiqincə gələcək, bu orqanların hər bir əməkdaşı ölkəmizin milli təhlükəsizliyinin təmin edilməsi yolunda qətiyyət və əzm nümayiş etdirəcəkdir.

100 illik yubileyiniz münasibətilə sizi bir daha ürəkdən təbrik edir, Azərbaycanın təhlükəsizliyinin etibarlı təmin olunması naminə şərəfli xidmətinizdə müvəffəqiyyətlər arzulayıram".

# SOCAR: TANAP üzrə ümumi irəliləyiş 99,5 faizə çatdırılıb



SOCAR-ın prezidenti Rövnəq Abdullayev və şirkət rəhbərliyinin nümayəndələri TANAP-ın İdarə Heyətinin martın 27-də Ankarada keçirilmiş toplantısında iştirak ediblər. Toplantıda TANAP layihəsinin hazırkı vəziyyəti müzakirə olunub.

İdarə Heyətinə məruzə edilib ki, TANAP-ın Əskişəhərə qədər olan hissəsinin istismarı, Yunanıstan sərhədinə qədər olan hissəsinin isə inşası üzrə aparılan işlər qrafiki qabaqlayaraq irəliləməkdədir. Tikintinin qurudakı hissəsi tamamlanıb və həmin hissədə yekun sazlama işləri aparılır. Beləliklə, layihənin hər iki mərhələsi üzrə ümumi irəliləyiş artıq 99,5 faizə çatdırılıb. Layihənin qrafiki qabaqlamaqla icra olunması ilə yanaşı, inşaat işləri beynəlxalq keyfiyyət standartlarına uyğun görülüb və təhlükəsizlik tələblərinə ən yüksək səviyyədə əməl edilib. Aprelin 15-dən etibarən TANAP kəmərinin Əskişəhərdən Yunanıstan sərhədinə qədər olan hissəsinin qazla doldurulmasına başlanılması nəzərdə tutulur.

TANAP qaz boru kəməri Cənub Qaz Dəhlizi layihəsinin tərkib hissəsi olan üç böyük boru kəmərindən biri və SOCAR-ın Türkiyədəki ən böyük investisiya layihəsidir. Xatırladaq ki, TANAP boru kəmərinin Əskişəhərə qədər olan hissəsinin rəsmi açılışı ötən il iyunun 12-də keçirilib və kommersiya məqsədli ilk təbii qaz iyunun 30-da bu kəmər vasitəsilə Türkiyə bazarına daxil olub. TANAP boru kəmərinin səhmdarları SOCAR və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin birgə müəssisəsi olan "Cənub Qaz Dəhlizi" QSC (51 faiz), "Botaş" (30 faiz), BP (12 faiz) və "SOCAR Turkey Enerji A.Ş" (7 faiz) şirkətləridir.

## "Diqlas" ticarət mərkəzində baş vermiş yanğın Prezident tərəfindən xüsusi nəzarətə götürülüb



Prezident İlham Əliyev tərəfindən xüsusi nəzarətə götürülmüş paytaxtın Nizami rayonu ərazisində "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla bağlı başlanmış cinayət işi üzrə Baş Prokurorluq, Fövqəladə Hallar, Daxili İşlər və Vergilər nazirliklərinin əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb.

Baş Prokurorluğun mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, cinayət işinin icraatı Azərbaycan Respublikası Baş prokurorunun qərarı ilə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinə tapşırılıb.

Hazırda Cinayət Məcəlləsinin 225.2 (Yanğın təhlükəsizliyi qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) və 308.2-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə istintaqı aparılan cinayət işi üzrə hadisənin başvermə səbəblərinin, sahibkarlara dəymiş ziyanın müəyyən edilməsi, eləcə də cinayəti törətməkdə təqsirli şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Hadisə nəticəsində zərərçəkmiş vətəndaşlardan, eləcə də yanğınla bağlı məlumatlı şəxslərdən Nizami rayon prokurorluğunda yaradılmış Qərargaha - 421-10-02 və Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin 440-78-13 nömrəli telefonlarına zəng etmələri xahiş olunur.

# "İmadəddin Nəsimi və özbək ədəbiyyatı"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2019-cu il "Nəsimi ili" elan edilib. Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şairi İmadəddin Nəsiminin yaradıcılığının təbliği məqsədilə dövlətimizin başçısının Sərəncamına əsasən ölkə daxilində və xaricdə silsilə tədbirlər keçirilir.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, belə tədbirlərdən biri də martın 28-də Beynəlxalq Mətbuat Mərkəzində keçirilib. "İmadəddin Nəsimi və özbək ədəbiyyatı" mövzusunda konfrans "Kaspi" qəzeti, "Kaspi" Təhsil Şirkəti və Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutub.

"Kaspi" Təhsil Şirkətinin təsisçisi və idarə heyətinin sədri, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva Prezident İlham Əliyevin 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi haqqında Sərəncamının əhəmiyyətindən danışaraq bildirib ki, bu, mütəfəkkir şairə dövlət səviyyəsində verilən dəyərin, hörmət və ehtiramın ən yüksək göstəricisidir. İmadəddin Nəsimi sözünün qüdrətindən danışan S.Vəliyeva deyib ki, o, Azərbaycan klassik poeziyasını həm məzmun və ideya, həm də yeni janrlarla zənginləşdirən, ona yeni nəfəs gətirən novator bir şair kimi tanınır. İmadəddin Nəsimi anadilli poeziyamızda çox gözəl fəlsəfi və lirik şeirlərin kamil nümunələrinin yaradıcısıdır. Bu şeirlər aktuallığını, fikir zənginliyini indi də qoruyub saxlayır. Bu, Nəsimi sözünün qüdrətinin təntənəsidir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu Azərbaycan ədəbi dilinin inkişafında İmadəddin Nəsiminin əvəzsiz xidmətlərindən danışıb. Akademik bildirib ki, mütəfəkkir şair anadilli poeziyamızda fəlsəfi qəzəlin kamil nümunələrinin yaradıcısıdır. O, anadilli lirik şeirləri ilə Yaxın və Orta Şərqdə ədəbi məktəb yaradan ilk Azərbaycan şairidir. M.Nağısoylu deyib: "İmadəddin Nəsimi milli varlığımız olan ədəbi dilimizin zənginləşməsi və təkmilləşməsində misilsiz xidmətləri olan qüdrətli söz ustadıdır. Onun şeirləri XIV əsr Azərbaycan ədəbi dilinin ən mükəmməl nümunələridir".



Sonra özbəkistanlı alim-tərcüməçi Tahir Qahharın "İmadəddin Nəsiminin əsərlərinin özbək dilinə tərcüməsi" mövzusunda çıxışı dinlənilib. O, Özbəkistan-Azərbaycan ədəbi əlaqələrindən, bu münasibətlərin daha da möhkəmlənməsində Nəsimi yaradıcılığının xüsusi rolundan danışıb.




Filologiya üzrə fəlsəfə doktoru, dosent Səadət Şıxıyeva "XV əsr özbək ədəbiyyatında Nəsimidən bəhrələnmələr" mövzusunda çıxışında qeyd edib ki, orta əsr Özbəkistan ədəbiyyatına nəzər saldıqda özbək şairlərin texniki, ideya və üslub baxımından Nəsimidən bəhrələndiklərini görmək mümkündür.

Özbəkistandakı Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov Azərbaycan-Özbəkistan ədəbi əlaqələrinin inkişafında İmadəddin Nəsiminin yaradıcılığının mühüm rol oynadığını bildirib. O, Nəsiminin 650 illiyi münasibətilə Mərkəz tərəfindən özbək dilində çap olunan "Jonani sevarman" kitabını təqdim edib. Qeyd edib ki, kitabda Nəsiminin özbək dilinə tərcümə olunmuş şeirləri və şairin AMEA-nın Əlyazmalar İnstitutunda qorunan əlyazmaları yer alıb.

Konfransda AMEA-nın Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanovun "Nəsimi yaradıcılığında insan konsepsiyası", AMEA-nın müxbir üzvü Kamran Əliyevin "İmadəddin Nəsimi və folklor", özbəkistanlı tarixçi-publisist Şuxrat Salmanovun "İmadəddin Nəsimi və özbək ədəbiyyatı", AMEA-nın Fəlsəfə İnstitutunun elmi işlər üzrə direktor müavini Eynulla Mədətlinin "İmadəddin Nəsiminin fəlsəfəsi" mövzularında çıxışları dinlənilib.

Özbəkistanlı qonaqlara milli mədəniyyətimizi ölkələrində fəal təbliğ etdiklərinə, Azərbaycan həqiqətlərini və Ermənistanın işğalçılıq siyasətini Özbəkistan mediasında geniş işıqlandırdıqlarına görə "Kaspi" qəzeti, "Kaspi" Təhsil Şirkəti və Azərbaycan Mətbuat Şurası tərəfindən diplomlar təqdim olunub.

## "SHELL" QARA DƏNİZDƏ KƏŞFİYYATA BAŞLAYIB



"Royal Dutch Shell" enerji nəhəngi Bolqarıstanda Qara dəniz sahillərində kəşfiyyat qazmasına start verəcək.

"Shell" İspaniyanın "Repsol" və Avstraliyanın "Woodside Energy" şirkətləri ilə birlikdə Bolqarıstanda dərinsulu neft və qaz kəşfiyyatına başlamaqla bağlı müqaviləni 2016-cı ildə imzalayıb.

Xatırladaq ki, Bolqarıstan demək olar ki, tamamilə Rusiya qazından asılı vəziyyətdədir. Hazırda ölkədə bu asılılığın qarşısının alınmasına səylər ciddi şəkildə artırılıb.

"Şəriklərimiz yaxşıdır və qazma işlərinə hazırlığa 18 ay bundan əvvəl başlamışıq. Aprel ayının 1-dən qazmaya start veriləcək",-deyə "Shell"in Bolqarıstan filialının meneceri Aleksandr Kayes bildirib.

Qara dənizdə 1300 metr dərinlikdə kəşfiyyat quyusunun qazma işləri təxminən üç ay davam edəcək.

## NEFT İDXALI ARTIB

Türkiyənin xam neft idxalı cari ilin yanvar ayında 48,1% yüksələrək, 2,2 milyon ton təşkil edib.

Ölkəyə gətirilən neft məhsullarının ümumi həcmi isə 18,4 % artaraq, 3,1 milyon tona çatıb.

Ölkədə neft emalı məhsullarının istehsal həcmi 26,7% yüksələrək, 2,3 milyon ton olub. Dizel istehsalı 7%, benzin istehsalı 13,9 % artıb.

Cari ilin yanvar ayında Türkiyədə ümumi yanacaq satışı ötən ilin eyni dövri ilə müqayisədə 7,9% aşağı düşüb.

## ENERJİYƏ QLOBAL TƏLƏBAT SÜRƏTLƏ ARTIR



Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, son onillikdə enerjiyə olan qlobal tələbat indiyədək görünməmiş sürətlə yüksəlib. Bəzi regionlarda isitmə, soyutma sistemlərinə tələbatın artması istehlakın 2,3% artmasına səbəb olub.

Bu artıma təsir edən əsas amillərdən biri isə ABŞ-da neftə tələbatın yüksəlməsidir.

Hesabatda bildirilir ki, ABŞ və Çində enerjiyə tələbat çox sürətlə artıb, Yaponiya və Koreyada bunun əksinə azalıb, Avropada isə sabit qalıb.

Təbii qaza olan tələbat 2018-ci ildə 2010-cu ildən bəri müşahidə edilən ən yüksək həddə çatıb.

## SAN XUAN ÇAYINA NƏ QƏDƏR NEFT AXIB?

Nümayəndə heyəti San Xuan çayının çirklənmədən təmizlənməsi üçün əməliyyatlara başlanılıb.

"Iki sahil" "moabsunnews.com" saytına istinadən xəbər verir ki, neft sızmasına məruz qalan təkcə San Xuan çayı deyil , həmçinin çayın yaxınlığındakı Sand İsland adasıdır.

Birləşmiş Ştatların Ətraf Mühitin Mühafizəsi Agentliyinin verdiyi məlumata görə, çirklənməyə San Xuan çayı yaxınlığındakı boru xəttində yaranan nasazlıq səbəb olub. Agentlik 3-4 barrel neftin çaya töküldüyünü elan etsə də, digər mənbələr 25 barrel neftin çaya sızdığını bildirirlər.

## ŞİMALİ DAKOTADA SIZMA



"İki sahil" "newscenter1.tv" saytına istinadən xəbər verir ki, daşqınlar nəticəsində neft sızaraq ABŞ-ın Şimali Dakota Ştatının şimal-qərbində yerləşən Yelovston çayına axıb.

Dövlət tədqiqatçısı Bill Suess verdiyi məlumata görə, sızan neftin həcmi 42 qalondan artıq deyil. Sızma Mckenzie əyalətində yerləşən "Whiting Petroleum" şirkətinə məxsus quyuda aşkar olunub.

"Whiting" şirkətinin sözçüsü Ashley McNamee daşqınlar bitmədən təmizlənmə işlərinə başlaya bilməyəcəklərini bildirib. O, həmçinin sızan neftin 10 barrel olduğunu da nəzərə çatdırıb. Dövlət rəsmiləri şirkətdən tez bir zamanda təmizlənmə işlərinə başlamalarını tələb ediblər. Bildiriblər ki, əks tədqirdə şirkət cərimələnəcək. Hadisə ilə əlaqədar ərazidə monitorinq aparılır.

# *Hikmət Babaoğlu:* Ermənistana Azərbaycanla uzunmüddətli müharibə aparmaq sərf etmir

Tarix boyu müşahidə etmişik ki, Ermənistan heç vaxt müstəqil siyasət həyata keçirə bilməyib. Dövlət olaraq hər zaman siyasi qüvvələrin maraqlarına xidmət edən siyasət nümayiş etdirib. Hazırda da bu tendensiya davam etməkdədir. Ümumiyyətlə, Paşinyan hakimiyyətə gəldikdən sonra Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı absurd, siyasi savadsızlığa söykənən təkliflərlə çıxış etməyə başladı. Bildirdi ki, mütləq şəkildə bu prosesdə qondarma bir qurum olan Dağlıq Qarabağ tərəf kimi çıxış etməlidir. Bu da təbii ki, onun hüquqi savadsızlığından irəli gəlirdi. Bu gün beynəlxalq münaqişələrdə problemlərin həllində qəbul olunmuş qaydalara əsasən mütləq şəkildə beynəlxalq hüququn subyektləri tərəf kimi iştirak etməlidir. Beynəlxalq hüququn subyektləri BMT tərəfindən tanınmış dövlətlərdir. Bu münaqişə də baş verən andan onun nizamlanması ATƏT-in Minsk qrupuna həvalə olunub. Münaqişədə tərəf kimi Ermənistan və Azərbaycan göstərilib.

Milli Məclisin deputatı Hikmət Babaoğlu bildirdi ki, rəsmi Bakı Ermənistanın baş nazirini danışıqlar masasına qayıtmağa məcbur etdi. Ötən bir il ərzində Nikol Paşinyan bir çox sərsəm bəyanatlar verməklə Ermənistanı işğal siyasətindən kənarda saxlamağa çalışdı. Bakının diplomatik hücumları və beynəlxalq təşkilatların təzyiqi onunla nəticələndi ki, ATƏT-in Minsk qrupunun həmsədrləri danışıqların formatının dəyişməsinin qeyri-mümkün olduğunu bildirdilər. Bundan sonra Avropa İttifaqının rəsmiləri də eyni bəyanatı verdilər. Buna paralel olaraq Azərbaycan həm də təmas xəttində genişmiqyaslı təlimlər keçirməklə, bir daha öz hərbi və siyasi gücünü, beynəlxalq nüfuzunu bütövlükdə Ermənistana nümayiş etdirdi. Yalnız bundan sonra Paşinyan danışıqlar masasına



qayıtmağa məcbur oldu. Bildiyiniz kimi, bir neçə gün bundan əvvəl Ermənistan Təhlükəsizlik Şurasının iclası keçirildi və belə qərara aldılar ki, danışıqlar masasına qayıtmaq vacibdir. Çünki danışıqlar olmasa bunun alternativi müharibədir. Heç bir halda Ermənistana və onun havadarlarına indiki şəraitdə Azərbaycanla uzunmüddətli müharibə aparmaq sərf etmir.

H.Babaoğlu bildirdi ki, Azərbaycanın güclü hərbi texnikası mövcuddur. Bütün bunlar da nəticə etibarilə nəhayət danışıqları zəruri etdi. Paşinyanın radikal bəyanatları, danışıqlardan imtina etməsi Ermənistan informasiya resurslarında müharibənin başlanması kimi qiymətləndirilirdi. Əslində, Paşinyana səs verən, onu baş nazir edən elektoratın özündə də bir qorxu mövcud idi. Hesab edirdilər ki, danışıqlardan imtina etmək şübhəsiz ki, müharibə ilə nəticələnəcək. Ona görə də hesab edirəm ki, bu mənada Paşinyan doğru seçim etdi. Ancaq ən doğru seçim o olacaq ki, nəhayət substantiv danışıqlar başlasın və Ermənistan işğalçılıq siyasətindən əl çəksin. Ümid edirik ki, gec də olsa, nəhayət, işğalçı ölkə ən düzgün qərarın məhz bu qərar olduğunu dərk edəcək.

**Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***

# Səyyar "ASAN xidmət" davam edir



28 mart 2019-cu il tarixindən etibarən Səyyar ASAN xidmət çərçivəsində SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi tərəfindən aprel ayının 11-dək Göygöldə, 28 mart-16 aprel tarixlərində Neftçala, Zərdab, Mehdiabadda, martın 28-dən aprel ayının 26-dək isə Balakən, Ağcabədi, İsmayıllı, Qusar, Astara və Salyan rayonlarında səyyar formada xidmətlər həyata keçiriləcək. Xüsusi tərtibatla hazırlanmış "Səyyar ASAN" avtobuslar və qatar vasitəsilə abonentlərə tam şəkildə "ASAN kommunal" standartlarına uyğun xidmət göstərilməsi təmin olunacaq.

İstehlakçılar bu layihə çərçivəsində müqavilələrin bağlanması, sayğac zədələnməsinin araşdırılması üçün müraciətlərin qəbulu, borc və ödəniş barədə arayışların verilməsi, abonent məlumatlarında dəyişikliklərin edilməsi də daxil olmaqla ümumilikdə 20 növ xidmətdən yararlana bilərlər.

Səyyar "ASAN xidmət"in həyata keçirilməsində əsas məqsəd "Azəriqaz" İstehsalat Birliyi tərəfindən xidmətlərin daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, abonentlər üçün əlçatanlığın təmin edilməsi və istehlakçı məmnunluğuna nail olunmasıdır.

# *Vüqar Bayramov:* Manatla krediti olanlara da güzəştlər tətbiq ediləcək

Məlum olduğu kimi, dövlət başçısı İlham Əliyev fevralın 28-də Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb. Sözügedən Fərmanın icrası ilə bağlı Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP) hazırlıq işlərini başa çatdırmaq üzrədir və kompensasiya alacaq vətəndaşların siyahısı müəyyənləşdirilib. Bu məqsədlə MBNP tərəfindən elektron portal da yaradılıb.

Hazırda vətəndaşları maraqlandıran əsas məsələlərdən biri kompensasiyaların ödənilməsinə nə vaxtdan başlanılacağıdır. Bununla bağlı qəzetimizə açıqlama verən iqtisadçı ekspert Vüqar Bayramov bildirdi ki, ölkə Prezidenti İlham Əliyev tərəfindən imzalanmış Fərmana əsasən, martın 15-dək mexanizmin hazırlanması və təqdim olunması nəzərdə tutulurdu: "Amma məlum olduğu kimi, mexanizmin təqdim olunmasında yubanmalar var. Yubanmalar da bizdə olan məlumata görə, birbaşa onunla bağlıdır ki, bəzi bankların məlumatları mərkəzləşdirilmiş kredit reyestrində olan məlumatlarla üst-üstə düşmür. Bu da təbii ki, yubanmalara gətirib çıxarıb. Bütövlükdə Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən mexanizmin hazırlanması prosesi gedir".

Ekspertin sözlərinə görə, güman olunur ki, yaxın vaxtlarda Prezident Administrasiyası mexanizmi təsdiq etdikdən sonra artıq mexanizmin tətbiq olunmasına başlanacaq: "Əgər mexanizm yaxın günlərdə



və xüsusən gələn həftə təqdim olunarsa, o zaman aprelin sonuna doğru kompensasiyaların verilməsinə başlana, ilkin kompensasiyalar təqdim oluna bilər. Bu baxımdan da gözlənilir ki, mexanizm təqdim olunduqdan sonra artıq banklar vətəndaşlarla əlaqə saxlamağa başlayacaqlar".

V.Bayramov qeyd etdi ki, manatla krediti olanlara da güzəştlər tətbiq olunacaq. Amma burada kompensasiya deyil, restrukturizasiya prosesi olacaq: "Yeni manatla krediti olanlara güzəştlərin tətbiq edilməsi nəzərdə tutulub. Son bir ildə ödənişində problem olan və məbləği 17 min manatdan artıq olmayan kreditlərə güzəştlərin tətbiq edilməsi nəzərdə tutulur. Həmin manatla kreditlər üçün faizlərin, eləcə də cərimə və artırılmış faizlərin silinməsi və bundan sonra isə qalan məbləğin 60 aya bölünərək ilk ili bir faizsiz, digər 4 ili isə bir faizlə olmaq şərti ilə kredit formasında ödənilməsi nəzərdə tutulur".

**Cavid Əkbərov,**
***"İki sahil"***

## "İslam prinsiplərinin analitik təhlili"



Martın 28-də Bakı Slavyan Universitetində (BSU) Təhsil Nazirliyindən (TN) göndərilən tövsiyə məktubu əsasında Tədrisin təşkili və tədris resursları şöbəsi tərəfindən "İslam tarixinin və islam əxlaqının əsas prinsipləri" adlı fakültativ kursların ilk mühazirəsi keçirilib. Tədbirdə Azərbaycan İlahiyyat İnstitutunun (AİI) İslamşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Əhməd Niyazov iştirak edib.

Ə.Niyazov BSU tələbələri qarşısında "İslam prinsiplərinin analitik təhlili" mövzusunda mühazirə ilə çıxış edib. Mühazirədə natiq islamşünaslığın tarixindən, İslamın din kimi dünya xalqları arasında formalaşmasından, bu dində mövcud olmuş təriqətlərdən danışıb.

Əhməd Niyazov qeyd edib ki, ölkəmizdə bütün ənənəvi dinlərə, o cümlədən İslam dininə, İslam mədəniyyətinə dövlət tərəfindən qayğı və diqqət göstərilir. O bildirib ki, VII əsrin əvvəllərində Ərəbistan yarımadasında meydana çıxan İslam dini qısa vaxt ərzində dünyanın böyük bir hissəsinə yayılıb. Ölkəmiz uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olmaqla yanaşı, İslam dininin yayılmasında da mühüm rol oynayıb. Ə.Niyazov əlavə edib: "Azərbaycan əhalisinin təxminən 96 faizini müsəlmanlar, 4 faizini xristianlar, yəhudilər, bəhailər, krişnaçılar və digər dinlərin mənsubları təşkil edirlər. 2017-ci ildə Azərbaycanda "İslam Həmrəyliyi İli"nin elan olunması İslam dəyərlərinin, həmçinin milli təsviri sənətimizin dünyada təbliğinə böyük töhfələr verib".

Mühazirənin davamında qonaq tələbələri maraqlandıran sualları cavablandırıb, iştirakçılara dini dəyərlərlə bağlı bir sıra tövsiyələr verib.

**Nüsrət Məmmədov,**
***"İki sahil"***

# Gənclər həqiqətlərimizin dünyaya çatdırılmasında daha fəal olmalıdırlar





**Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının qərargahında 31 mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar gənclərlə görüş keçirilib.**

Tədbirdə Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov ermənilərin xalqımıza qarşı əsrlər boyu həyata keçirdikləri soyqırımı siyasətinin mahiyyəti və tarixi köklərindən ətraflı söz açıb. Bildirib ki, ermənilər 1905-1907-ci illərdə Bakıda və digər bölgələrimizdə dinc azərbaycanlılara qarşı qətliamlar törədiblər. 1915-ci ildən 1920-ci ilədək olan dövrdə də erməni quldur dəstələri ölkəmizdə misli görünməmiş qətliamlar həyata keçiriblər. T. Əhmədov vurğulayıb ki, 1918-ci ilin mart-aprel aylarında daşnak-bolşevik silahlı dəstələri Bakıda, Qubada, Şamaxıda, ölkəmizin digər şəhər və rayonlarında 50 mindən çox azərbaycanlını qətlə yetiriblər. Təcavüzkar ermənilərin apardıqları işğalçılıq müharibəsi nəticəsində ötən əsrin sonlarında yüz minlərlə azərbaycanlı Ermənistandan qovulub, torpaqlarımızın 20 faizi işğal olunub.

O, həmçinin qeyd edib ki, amma bütün bunların dünya ictimaiyyətinə çatdırılmasına Sovet imperiyası imkan verməyib. Erməni millətçilərinin illərlə reallaşdırdıqları soyqırımı və deportasiya siyasətinin mahiyyəti yalnız ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışından sonra dünya ictimaiyyətinə çatdırılıb. Ulu Öndərin 1998-ci il 26 mart tarixli Fərmanı ilə 31 martın Azərbaycanlıların Soyqırımı Günü elan edilməsi Azərbaycan həqiqətlərinin daha geniş yayılması ilə nəticələnib.

Tarix elmləri doktoru, professor Anar İsgəndərov da tarixi faktlara istinad edərək ermənilərin törətdikləri qətliamları gənclərin diqqətinə çatdırıb. O, bu qətliamlara hələ də dünya səviyyəsində hüquqi qiymət verilmədiyini təəssüflə vurğulayıb. Bildirib ki, Azərbaycanın illərdir beynəlxalq təşkilatlara etdiyi müraciətlərə rəğmən, Xocalı soyqırımı faktı hələ də lazımi səviyyədə siyasi, hüquqi qiymətini almayıb. Halbuki Xocalı faciəsi Holokost, Xatın soyqırımları kimi insanlığa qarşı törədilmiş qətliamlarla bir sırada dayanır. O qeyd edib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin soyqırımı siyasətinə beynəlxalq səviyyədə siyasi-hüquqi qiymətin verilməsinə dair gördüyü işlər hər birimizdə ədalətin təzliklə öz yerini tapacağına böyük inam yaradır. Anar İsgəndərov gəncləri Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında daha fəal olmağa çağırıb.

Daha sonra tədbir diskussiya formasında davam etdirilib.

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# Pirallahıda milli təhlükəsizlik orqanlarının yaradılmasının 100 illik yubileyi qeyd olunub





Martın 28-də Pirallahı Rayon İcra Hakimiyyətinin binasında Azərbaycanın milli təhlükəsizlik orqanlarının yaradılmasının 100-cü ildönümü münasibətilə tədbir keçirilib. Tədbirdə Pirallahı Rayon İcra Hakimiyyətinin, Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) əməkdaşları, rayon ərazisində yerləşən idarə və təşkilatların nümayəndələri iştirak ediblər. Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov Dövlət Təhlükəsizliyi Xidmətinin kollektivini əlamətdar yubiley münasibətilə təbrik edib. Bildirib ki, ölkəmizin ictimai-siyasi həyatında, dövlətçiliyin qorunmasında, ölkədə sabitliyin bərqərar olmasında Dövlət Təhlükəsizliyi Xidmətinin rolu əvəzedilməzdir. Ötən əsrin ortalarından başlayaraq təhlükəsizlik orqanlarında Vətənə, dövlətə və xalqa əsl sədaqət ideyalarını formalaşdıran Heydər Əliyev ənənələri bu gün də yaşadılır, Prezident İlham Əliyev tərəfindən böyük əzm və uğurla davam etdirilir. Bu gün Azərbaycan sosial-iqtisadi, ictimai-siyasi həyatın bütün sahələrində dinamik inkişaf edir. Bütün bu uğurlar ölkədə bərqərar olmuş ictimai-siyasi və sosial-iqtisadi sabitlikdən irəli gəlir. Vurğulanıb ki, xüsusi xidmət orqanlarının əməkdaşları Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsində, xarici xüsusi xidmət orqanlarının kəşfiyyat fəaliyyətinin aşkarlanmasında və qarşısının alınmasında, beynəlxalq terrorçuluğa və transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə yüksək peşəkarlıq və qəhrəmanlıq nümayiş etdirirlər.

DTX Xəzər rayon idarəsi Pirallahı ərazi bölməsinin rəisi Qədim Qasımov çıxışında Azərbaycan təhlükəsizlik orqanlarının yaranma tarixindən, inkişaf mərhələlərindən və keçdiyi şərəfli yoldan danışdı. Qeyd edildi ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin qayğısı ilə daim təkmilləşən Dövlət Təhlükəsizliyi Xidməti hazırda inkişafının yeni mərhələsinə qədəm qoyub. Q.Qasımov qeyd edib ki, müstəqilliyini əzmlə möhkəmləndirən, demokratik prinsiplərə əsaslanan sivil, hüquqi dövlət quruculuğu yolunda dönməzliyini sübuta yetirən Azərbaycan Respublikası bu gün dövlətçilik ənənələrini daha da inkişaf etdirərək etibarlı gələcəyi, əbədiyaşarlığı üçün sarsılmaz təməl yaradıb. Bu sahədə üzərinə mühüm vəzifələr düşən DTX Azərbaycan xalqının ən böyük nailiyyəti olan dövlət müstəqilliyinin qorunub saxlanılmasında və daha da möhkəmləndirilməsində mühüm işlər görür.

Sonda Dövlət Təhlükəsizliyi Xidmətinin bir qrup əməkdaşı Pirallahı Rayon İcra Hakimiyyəti tərəfindən Fəxri fərman və hədiyyələrlə mükafatlandırılıb.

**Zamin Məmmədov,*"İki sahil"***

## MONİTORİNQ İNSİDENTSİZ BAŞA ÇATIB



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 28-də Tərtər rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Qeyd edək ki, Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Gennadi Petrika, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər.

## ATƏŞKƏS 20 DƏFƏ POZULUB



Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyindən verilən məlumata görə, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisində ki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Cəvahirli, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

# "Azneft" İstehsalat Birliyi

**elektrik mallarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11024AM-19) vaxtını uzadaraq yenidən elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 16.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 23.04.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin emtək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər LOT 1 üzrə 236 AZN (ƏDV daxil) LOT 2 üzrə 59 AZN (ƏDV daxil)və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin təchizat 90 gün ərzində icra olunması tələb olunur

***V. Müsabiqə təklifinin təminatı:***

* İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur. . (LOT-1 üçün ayrı zərfdə təqdim edilməlidir, LOT-2 üçün tələb olunmur)

* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.

* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.

* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

* Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 30%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, "Azneft" İB

**Əlaqələndirici şəxs:**

Qasımov Vüqar
Satınalmalar və Təchizat şöbəsi, mühəndis
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 382 (daxili)
korporativ mobil nömrəsi: +99450 841 13 82
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: Vuqar.Qasimov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 30.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

# Azərbaycan-Belarus strateji müttəfiqliyi fonunda erməni mediasının "dalay-dalay" çarəsizliyi...



**Azərbaycan Silahlı Qüvvələrinin məqsədyönlü şəkildə hərbi potensialını gücləndirməsi və müasir silahlar alması həmişə olduğu kimi, yenə də Ermənistan mətbuatının gündəmində olan əsas xəbərlərdəndir. İşğalçı Ermənistanı ciddi narahat edən daimi mövzulardan biri də Azərbaycanın bir çox ölkələrlə hərbi - strateji müttəfiqliyidir.**

İşğalçı ölkənin "armenianreport.com" saytında Q.Qalustyan adlı daha bir aqressiv müəllif bu dəfə Azərbaycan-Belarus strateji tərəfdaşlığını hədəfə alaraq sayıqlamalarını yazıya köçürüb. Azərbaycanın Belarusdan yeni silahlar alması faktı ilə bağlı mümkün müharibə ehtimalına görə işğalçı ölkənin digər internet resurslarında da bu xəbər əsl "zəlzələ effekti" yaradıb.

Üzdəniraq erməni analitik isə xüsusi narahatlıq və hiddətlə Azərbaycan-Belarus münasibətlərinin ən yüksək səviyyəyə çatmasını heç cür "həzm edə bilmədiyini" gizlətməyi lazım bilməyib: "Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvləri ilə müttəfiqliyi sadəcə kağız üzərində olan bir adlandırmadır. Əslində bu təşkilatın Ermənistanı zərrə qədər də saymayan bütün üzvləri açıq şəkildə Azərbaycanın dostlarıdırlar. Yox, bu dəfə Rusiya haqqında danışmayacağıq. İndi Belarusun Azərbaycanla hərbi sənaye sahəsindəki böyük əməkdaşlığından söz açacağıq. Azərbaycan uzun illərdir Belarusdan müasir silahlar tədarük edir. Bu yaxınlarda isə Azərbaycan Belarusun "Aqat İdarəetmə Sistemləri" şirkətinin istehsalı olan 7A0917 "Lektor" daşınan artilleriya atəş idarəetmə kompleksi alıb. Silahlanmaya yeni qəbul edilmiş kompleks mart ayının ortalarında keçirilmiş hərbi təlimdə istifadə olunub. Batareya komandiri üçün nəzərdə tutulan kompleksin tərkibinə radiostansiya, "Kaponir" elektro-optik müşahidə sistemi, VM2307 markalı tablet, batareyanın baş zabitinin texniki vasitələrinin tərkibinə radiostansiya, GMX500 meteostansiyası və VM2307-in tableti, top komandirləri üçün VM2306 əl tableti, radiostansiya və silahı tənzimləmə üçün alətlər daxildir. Texniki vasitələr artilleriya batareyasının idarə edilməsi və atış hazırlığı ilə bağlı bütün məsələləri həll etməyə imkan verir. İstehsalçının məlumatına görə, sınaqları tamamlanan "Lektor" kompleksi ilk dəfə fevral ayında Əbu-Dabidə keçirilmiş İDEX-2019 sərgisində nümayiş etdirilib".

Azərbaycan Ordusunun tədarük etdiyi yeni silahlarla bağlı bütün məlumatları təfərrüatları ilə qeyd edən Qalustyan qəzəbini boğa bilməyib Belarus rəhbərliyinin ünvanına qərəzli ifadələr işlədib: "Ermənistanın KTMT-dəki müttəfiqi Belarus növbəti dəfə Azərbaycanı dəstəklədiyini sübut etdi! Lukaşenko növbəti dəfə də Ermənistanın rəyinə əhəmiyyət vermədiyini, bütünlüklə Azərbaycanın tərəfində olduğunu nümayiş etdirdi".

Belarusun bu addımını ölkəmizin xarici siyasət uğuru və Belarusun hər zaman Azərbaycanın haqq işinə dəstək verməsi kimi dəyərləndirməyə erməni müəllifin qərəzli subyektiv mövqeyi imkan verməsə də, dolayısı ilə analitik işğalçı Ermənistanın xarici siyasətinin fiaskoya uğradığını diqqətə çatdırıb.

Qalustyan, eyni zamanda, məşhur Azərbaycan məsəlində deyildiyi kimi, sözü qurtardığından "dalay-dalay" deyən aşıqsayağı əsaslandırmağa arqumenti olmadığından, Belarusun daxili işləri ilə bağlı qərəzli fikirlər səsləndirib, adıçəkilən ölkənin Prezidenti Aleksandr Lukaşenkonun daxili siyasətinə "qulp qoymağa" cəhdlər göstərib.

Müəllif Ermənistanın xarici siyasətdəki rüsvayçı uğursuzluqlarını guya "Rusiyanın və Belarusun diktator rəhbərlərinin" "demokratik lider" olan Nikol Paşinyanla dil tapmaması kimi təqdim etməyə, bununla da əsl həqiqətləri ört-basdır etməyə çalışıb.

Görünən budur ki, "ənənəsinə sadiq qalan" aqressiv və qərəzli erməni internet portalları yenə də Azərbaycanın hərbi müttəfiqlərindən biri olan Belarus ilə yüksək səviyyəli münasibətləri haqqında qorxu və hiddət dolu yazıların fonunda əslində güclü orduya malik ölkəmizlə mümkün müharibə ehtimalına görə dərindən təşviş keçirirlər.

Təbii ki, erməni müəlliflər Ermənistanın acınacaqlı duruma düşməsinin, sözügedən ölkənin daxili və xarici siyasətdəki rüsvayçılıqlarının əsas səbəbinin əslində səriştəsiz liderlər və illərlə Azərbaycana qarşı dövlət səviyyəsində həyata keçirilən terror və işğalçılıq siyasətindən qaynaqlandığını yaxşı bilirlər. Problemlərinin yaxşı fərqində olan işğalçı Ermənistana isə düşdüyü rüsvayçı durumlardan gerçək çözüm yolunu Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə beynəlxalq səviyyədə bəyan edib: "Dağlıq Qarabağın gələcək statusu ancaq vahid Azərbaycan dövləti çərçivəsində mümkün ola bilər. Münaqişənin həlli bundan ibarətdir və Ermənistan rəhbərliyi bunu nə qədər tez anlasa, onlar üçün bir o qədər yaxşı olacaq. Ərazi bütövlüyünün təmin olunması, işğala son qoyulması bu münaqişənin həlli üçün əsas amillərdir. Ermənistan müstəqil dövlət kimi dünya xəritəsində sadəcə olaraq formal mövcuddur. Ermənistan asılı ölkədir, öz gələcəyini özü müəyyən edə bilmir. İşğalçı siyasəti onları bax, bu vəziyyətə gətirib çıxarıbdır. Onların vəziyyətdən yeganə çıxış yolu qonşularla münasibətləri bərpa etməkdir. Bunun üçün isə işğala son qoyulmalıdır".

**Sevinc Abdullayeva,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR)*

## "Azəriqaz" İstehsalat Birliyi

**elektrik mallarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29012-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 09.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 15.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər satınalınan mallar üzrə 59 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar:***
*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur. Tətbiq olunmur*
*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*
*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*
*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*
**Avans ödənişinə görə təminat:**
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır. Tətbiq olunmur
**Müqavilənin yerinə yetirilməsi təminatı:**
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur. Tətbiq olunmur.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 2 ay müddətində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-i.***

***VII Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23
**Əlaqələndirici şəxs:**
Hüseynova Nigar
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994 12 521-00-00 (daxili 29 164)
nigar.huseynova@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***IX. Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 15.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə 11:00-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Neft Kəmərləri İdarəsi

**Avadanlıq və mal-materiallara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (13004-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 22.04.2019-cu il (ən geci müsabiqə təkliflərinin təqdim olunmasının son tarixindən 7 iş günü əvvəl), Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 30.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV daxil), və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 90 təqvim günü müddətinə yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1025;
Bakı şəhəri;
Xətai rayonu;
Xocalı pr 28;
**Əlaqələndirici şəxs:**
İsmayılzadə Rövşən Yaşar oğlu.
Neft Kəmərləri İdarəsinin Satınalmalar şöbəsinin Böyük mühəndisi
+994125210000 (daxili 13035)
+994125210000 (daxili 13036) (faks)
+994508413035 (mobil)
Rovshan.Ismayilzade@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 30.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da, elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Neft Kəmərləri İdarəsinin Satınalmalar qrupu**

# ERMƏNİSTANDAKI SON DURUM:
# yeni hakimiyyəti sıxan geosiyasi şərtlər və Azərbaycanla razılaşmaq məcburiyyəti...

Martın 29-da Vyanada Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın Vyanada görüşü planlaşdırılır. Bu görüşün əsl təşəbbüskarı isə ATƏT-in Minsk qrupudur. Bu qurum dəfələrlə Nikol Paşinyanın danışıqlardan qaçması faktını etiraf etməklə bərabər, münaqişənin nizamalanmasına dair mövcud variantın dəyişdirilməsi ilə bağlı Ermənistanın təkliflərini də qəbul etməyib. Bütün danışıqlar ölkəmizin ərazi bütövlüyü çərçivəsində aparılır. Lakin Paşinyanın qondarma rejimin də tərəf kimi iştirakında israr etməsini isə beynəlxalq təşkilatlar qətiyyətlə rədd edirlər.

Bu artıq reallıqdır ki, Ermənistanın bir ölkə olaraq perspektiv inkişaf kursuna yenidən baxması zəruridir. Ona görə ki, hələ də Azərbaycan ərazilərini işğal altında saxlaması onun iqtisadi iflasına sürətləndirir. Bu faktı nəzərə alan erməni politoloqları da etiraf edirlər ki, Ermənistan Azərbaycanın əsas söz sahibi olduğu regional iqtisadi layihələrdən kənarda qaldıqca onun iflası bir o qədər sürətlənəcək.

Məhz Ermənistan ictimaiyyəti arasında bu amili dəyərləndirənlərin sayının artması hazırkı hakimiyyəti də düşünməyə vadar edir. Eyni zamanda, yeni hakimiyyətdə daha çox antirusiyalıların təmsil olunması səbəbindən Rusiya ilə münasibətlərinin ciddi şəkildə sərinləşməsi və buna görə Rusiya hakimiyyətində ermənilərə qarşı ciddi inamsızlığın yaranması Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yeni impulslar verə bilər.

Həqiqətən də bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün daha əlverişli vəziyyət yaranıb. Xüsusilə Ermənistanda hakimiyyət dəyişikliyi baş verib, yeni, təcrübəsiz hökumət formalaşıb, "Qarabağ klanı" hakimiyyətdən tamamilə uzaqlaşdırılıb. Əvvəlki hökumət faktiki olaraq 25 il ərzində əlindən gələni edib ki, bu məsələ həll olunmasın.



İndi Ermənistanın yeni hakimiyyətindən kompromisə meyillilik gözləntiləri hələ mövcuddur. Yeni Nikol Paşinyan "Qarabağ klanı"nı ölkəni iflas durumuna saldıqları üçün nəinki tənqid edir, hətta onların rəhbərlərini həbs etdirir. Deməli, məntiqlə yeni hakimiyyət iflasın qarşısını almaq üçün sələflərinin yolunu getmək istəməyəcək və işğalçılıq siyasətindən əl çəkməyə məcbur olacaq.

Təbii ki, ölkəmiz yaranmış yeni situasiyadan yetərincə yararlanmağı düşünür. Belə ki, son bir ildə Rusiyada yaranan antiermənistan ovqatı və Ermənistandakı açıq antirusiya çıxışları ölkəmizə əlavə geosiyasi mövqe üstünlüyü qazandırır.

Bir məqamı da vurğulamaq lazımdır ki, Paşinyan hakimiyyəti antirusiya mövqeyini sərgiləməklə daha çox Qərbin diqqətini çəkmək və onlardan pul dilənmək istəyirdi. Ancaq nə seçkidən öncə, nə də sonra Qərb Ermənistana nəinki pul ayırmadı, hətta onun yeni hakimiyyətini Rusiyadan qorxan, mövqesiz iqtidar kimi dəyərləndirdi.

Bunlardan başqa, əvvəldə qeyd etdiyimiz kimi, yeni hakimiyyətin rəhbəri Nikol Paşinyan yeniliklər etmək iddiasındadır. O, mütləq iqtisadi və siyasi uğurlara nail olmalıdır. Bunun üçün ilk növbədə Ermənistan böyük maliyyə tələb edən müharibədən vaz keçməli, yaxın və zəngin qonşuları olan Azərbaycan və Türkiyə ilə iqtisadi əməkdaşlığı bərpa etməlidir. Təbii ki, hər iki qonşu ölkə dəfələrlə Ermənistanla iqtisadi-ticari əlaqələr qurmağa hazır olduqlarını bildiriblər. Lakin bir şərtlə ki, Azərbaycanın işğal altındakı torpaqları azad edilməlidir.

Görünən odur ki, indiki geosiyasi vəziyyət Ermənistanı dalana dirəyib və bu ölkənin yeni hakimiyyəti onu sıxan geosiyasi şərtlərdən yaxa qurtarmaq üçün Azərbaycanın təklif etdiyi kompromis variantlarla razılaşmağa məcburdur.

**Elçin Zaman,**
***"İki sahil"***

## BAKI ALİ NEFT MƏKTƏBİ DÖVLƏT AKKREDİTASİYASINDAN KEÇİB




Bakı Ali Neft Məktəbinin (BANM) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları" və Azərbaycan Respublikası Təhsil Nazirliyinin qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin fəaliyyətinin dövlət təhsil standartlarının tələblərinə uyğunluğunu müəyyənləşdirən meyarlar" əsasında dövlət akkreditasiyası keçirilmişdir. Nəticə olaraq BANM ali təhsil müəssisəsi kimi Təhsil Nazirliyinin akkreditasiya haqqında sertifikatını əldə etmişdir.

BANM-in Neft-qaz mühəndisliyi, Kimya mühəndisliyi və Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasları artıq 2022/2023-cü tədris ilinədək akkreditə olunmuş hesab olunur.

Qeyd edək ki, BANM indiyədək iki məzun buraxılışı həyata keçirib. Ali məktəbin məzunları yerli və transmilli şirkətlərdə 100% işlə təmin olunub, təhsillərini davam etdirmək istəyən məzunlar isə doğma Azərbaycanın və dünyanın nüfuzlu universitetlərində magistratura və PhD pilləsində təhsil alırlar.

BANM, eyni zamanda, Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələri içərisində ISO 9001 (Keyfiyyət idarəetmə sistemi), ISO 14001 (Ekologiya idarəetmə sistemləri), OHSAS 18001 (Əməyin mühafizəsi və təhlükəsizlik texnikası idarəetmə sistemləri) və ISO 10002 (Müştəri məmnuniyyəti - şikayətlərin idarə edilməsi üzrə rəhbər göstərişlər) sertifikatlarını almış yeganə ali təhsil müəssisəsidir.

## ÜZƏ GÜLƏN TAXIL ZƏMİLƏRİ

Bahar dağların döşünə sığınan Lerik rayonuna ayağı sayalı gəlib. Buranın bolluq, bərəkət mənbəyi olan yamyaşıl zəmiləri bunun canlı şahididir. Zəmilərin hər qarışında boyboya verən körpə taxıl bitkilərinə baxdıqca baxmaq istəyirsən. Öz xoş güzəranını torpaqla ünsiyyətdə tapan kənd adamının çəkdiyi zəhmət öz nəticəsini indidən göstərir.

Rayonda 2019-cu ilin məhsulu üçün 2980 hektar sahədə əkin aparılıb. Əvvəlcədən torpaq səpinə aqrotexnika qaydasında hazırlanıb, məhz buna görə zəmilərdə alınan cücərtilər normal inkişaf edir. Bu da adəti üzrə yenə də Lerikdə taxılın bol olacağına bir işarədir.

Rayonun Nüvədi, Nücü, Əliabad, Şingədulan, Osyodərə və Siyov ərazilərində taxılçılığa maraq daha böyükdür.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# Vyana görüşü Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində dönüş yaradacaqmı?

Ermənistandakı ağır sosial-iqtisadi durum artıq silahlı qüvvələrə də sirayət etməkdədir. Belə ki, bir neçə gün öncə Mehridə yerləşən hərbi hissədə qiyamın baş verməsi, eləcə də Dağlıq Qarabağda erməni hərbi qulluqçusunun əsgər yoldaşını güllələyərək öldürməsi işğalçı ölkənin ordusunda idarəolunmaz bir vəziyyətin yarandığını göstərir. Bütün bunlar o deməkdir ki, artıq Ermənistanın ordusu da tənəzzül dövrünü yaşayır. Bu, həm də belə bir ordunun işğal etdiyi ərazilərimizi uzun müddət öz nəzarətində saxlaya bilməyəcəyindən xəbər verir.

Bu kimi səbəblərdən baş nazir Nikol Paşinyanın reytinqi xeyli aşağı düşüb. Amma Nikol Paşinyan Ermənistanın bugünkü problemlərinin - inkişafdan geri qalmasının, digər dövlətlərdən əsaslı və köklü şəkildə asılılığının kökündə bu ölkənin işğalçılıq siyasətinin durduğunu hələ də dərk etmək istəmir. Halbuki bu münaqişənin nizama salınması Nikol Paşinyanın da "inqilabi" çıxışlarında və vəd etdiyi kimi, ölkəsinin tərəqqi yoluna qədəm qoymasına şərait yaradardı.

Dağlıq Qarabağ probleminin həllinə barmaqarası yanaşan və özünü "islahatçı" və "demokrat" adlandıran Nikol Paşinyan guya münaqişə ilə bağlı çox zəif təsəvvürlərə malik olduğunu və özünün hakimiyyətə gəlişinə qədər aparılmış danışıqların detallarından xəbəri olmadığını bildirməklə və beynəlxalq təzyiqlərə baxmayaraq yeni "təkliflər" irəli sürməklə vəziyyəti daha da qəlizləşdirməyə, özünə siyasi divident qazandırmağa çalışır. Şübhəsiz, real vəziyyətdən nəticə çıxarmağa cəhd etməyən Nikol Paşinyanın bu kimi açıqlamaları onun erməni hiyləgərliyi ilə bağlıdır.

Siyasətçilərin fikrincə, elə ATƏT-in Minsk qrupunun həmsədrlərinin təşəbbüsü ilə Vyanada keçiriləcək danışıqlar ərəfəsində cəbhə xəttindəki təxribatlar da Nikol Paşinyanın "əməyinin bəhrəsidir". Bu isə o deməkdir ki, o, münaqişənin sülh yolu ilə həllinin, xüsusən də işğal altındakı ərazilərin Azərbaycana qaytarılmasının əleyhdarıdır. Yəni o da bütün hallarda status-kvonu saxlamağa çalışır.

Siyasi elmlər doktoru Hatəm Cabbarlı mövzu ilə bağlı "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki, Vyana görüşündə münaqişənin həlli istiqamətində müsbət irəliləyişlərin olacağını düşünmək sadəlövhlük olardı: "Təki müəyyən irəliləyişlər əldə olunsun. Amma Nikol Paşinyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı "fəaliyyəti" analiz edəndə bir daha əmin olursan ki, o, danışıqlara qeyri-konstruktiv yanaşır, ərazi bütövlüyümüzü tanımaqdan imtina edir. Bununla da o, əsasən şəxsi və onu dəstəkləyən kə-



nar güclərin maraqlarına xidmət etməkdədir. Bu isə o deməkdir ki, son anda Azərbaycan danışıqların davam etdirilib-etdirilməməsi barədə ciddi düşünməli olacaq. Yeri gəlmişkən, Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində bir daha vurğulayıb ki, Azərbaycan çalışır və çalışacaq ki, bu məsələ tezliklə yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapsın: "Biz bununla bərabər, əlbəttə ki, öz hərbi gücümüzü artırırıq". Yəni dövlət başçımız bununla demək istəyir ki, münaqişənin hərbi yolla qalibiyyətli həlli üçün hər cür üstün imkanlara malikik, amma yenə də təmkinlik nümayiş etdirməkdəyik. Bir sözlə, Nikol Paşinyan real vəziyyətdən nəticə çıxarmalı, öz separatçı iddialarından əl çəkməli və Vyana görüşündə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ortaya konstruktiv mövqe qoymağa çalışmalıdır. Əks halda, Nikol Paşinyana, o cümlədən Ermənistana heç də yaxşı nəsnələr vəd olunmur. Müdafiə nazirimiz Zakir Həsənovun sözləri ilə desək, "hər itkimizin on qat cavabını alacaqlar".

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# Karateçilərimiz Vətənə medalla dönüb





**Ötən gün Türkiyənin Antalya şəhərində keçirilən yeniyetmələr, gənclər və böyüklər arasında aşihara karate növü üzrə Avrasiya çempionatının yekunları ilə bağlı mətbuat konfransı keçirilib.**

Konfransı giriş nitqi ilə açan Azərbaycan Aşihara Karate Federasiyasının vitse-prezidenti, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev bildirib ki, mart ayının 20-dən 24-dək davam edən və ümumilikdə 20 ölkədən 220 idmançının iştirak etdiyi turnirdə azərbaycanlı idmançılar uğurlu nəticə göstərməyi bacarıblar. Vurğulanıb ki, 11 idmançı ilə çempionatda təmsil olunan Azərbaycan 6 qızıl, 4 gümüş və 1 bürünc olmaqla 11 medal qazanıb. Beləliklə, turnirdə iştirak edən bütün idmançılar evə medalla qayıdıblar: "Bu gənclər Azərbaycanın gələcəyidir. Bu idmançıların uğurlarını təbliğ etməklə onları daha da ruhlandırmaq olar".

Aşihara Karate Federasiyasının prezidenti və baş məşqçi Maarif Bağırov bildirib ki, döyüşçülər arasında 60 kq çəkidə mübarizə aparan Musa Musazadə "Yarışın ən texnikalı döyüşçüsü" kubokuna layiq görülüb: "220 idmançı arasında Musa Musazadənin seçilməsi komandamızın ən böyük uğurudur".

M. Bağırov qeyd edib ki, 1998-ci ildən fəaliyyət göstərən Federasiya 2002-ci ildən dünya çempionatlarına qatılır. Bu günə qədər bir sıra beynəlxalq yarışlarda nailiyyətlər əldə edib. Vurğulanıb ki, 2020-ci ildə Federasiya İtaliyada keçiriləcək dünya çempionatında da iştirak edəcək.

M. Bağırov bundan başqa, aşihara karatenin tarixi barədə geniş danışıb.

Federasiyanın digər vitse-prezidenti Vüsal Məmmədov da qardaş ölkədə keçirilən çempionat barədə məlumat verərək bildirib ki, böyüklər arasında Musazadə Musa, Namiq Məmmədzadə, Fərman Rəhimov, uşaq və yeniyetmələr arasında Rauf Hüseynov, Ülfət Vəliyev, Məhəmməd Əsgərov (7 yaşı var) qızıl, Natiq Qafarov, Rəhman Qasımov, Azim Babayev, İlkin Həsənov gümüş, Rauf Quliyev bürünc medala layiq görülüblər: "Bu nəticəyə görə komandamızı birinci də hesab etmək olar. Əgər digər ölkələrdən qatılan idmançıların da sayına baxsaq, onların heç birində komanda heyətinin 100 faizi medal əldə edə bilməyiblər. Ona görə də bu nəticəni "əla" adlandırmaq olar. Təsadüfi deyil ki, ölkəmizi təmsil edən komandanın üzvləri turnir iştirakçılarının böyük marağına səbəb olub".

V. Məmmədov qeyd edib ki, turnirdə Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, Türkmənistan, Tacikistan, Qazaxıstan, Ukrayna, Niderland, Macarıstan, Yunanıstan, Bolqarıstan kimi ölkələrdən idmançılar iştirak ediblər.

Bildirilib ki, əlbəyaxa döyüş növü olan bu karate növünün inkişafı gənclərimizin sağlam, döyüşkən, mübariz ruhda formalaşması üçün geniş imkanlar açır.

Tədbirdə, eyni zamanda, turnirdən bəhs edən videoçarx nümayiş etdirilib.

**Ceyhun Piriyev,**
***"İki sahil"***

## Erməni əsgərlərin qiyamı ilə bağlı yeni təfərrüatlar üzə çıxıb



Ermənistanın Mehridə yerləşən hərbi hissəsində bir neçə gün əvvəl baş vermiş qiyamın yeni təfərrüatları üzə çıxıb. Trend-in erməni KİV-lərinə istinadən verdiyi məlumata görə, belə ki, Mehri alayında müəyyən üstünlüyə malik bir qrup əsgər öz qaydalarını tətbiq etməyə cəhd göstəriblər. Zabitlər nizam-intizamı bərpa etməyə qərar verəndə isə alay bir neçə əsgərin çağırışına uyğun olaraq hərbi hissənin ərazisini tərk edib və küçələrə çıxıb.

Şahidlər əsgərlərin narkotik qəbul etdiyini də deyir. Həmin hərbi qulluqçular cəzalandırılıb, bir qismi isə Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə göndərilib.

Əsgər anaları isə bundan narahat olaraq Yerevanda etiraz aksiyası keçirib və övladlarının hansı səbəbdən Dağlıq Qarabağa göndərilməsi ilə bağlı izahat tələb ediblər.

Dağlıq Qarabağda erməni hərbi qulluqçunun əsgər yoldaşını güllələyərək öldürməsi faktı da Ermənistan ordusunda özbaşınalığın, dözülməz, idarəolunmaz bir vəziyyətin baş alıb getdiyini göstərir.

## Gədəbəydə meşədən silah-sursat tapılıb

Qanunsuz saxlanılan silah-sursatın aşkar edilərək götürülməsi, eyni zamanda, könüllü təhvil verilməsi məqsədilə polis orqanları tərəfindən əməliyyat-axtarış və profilaktiki tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan Trend-ə verilən məlumata görə, martın 27-də daxil olmuş məlumat əsasında Gədəbəy rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində rayonun Turşsu adlanan meşəlik ərazisindən bir ədəd istifadəyə yararsız "AKS-74" markalı silah, 64 ədəd avtomat patronu və 1 ədəd patron darağı aşkar edilərək götürülüb.

Faktla bağlı araşdırmalar davam etdirilir.

## Zəlzələ yenə Türkiyəni silkələdi

Türkiyənin Malatya vilayətində zəlzələ baş verib.

Trend-in məlumatına görə, yeraltı təkanların 4,1 bal gücündə qeydə alındığı bildirilir.

Məlumata görə, zəlzələ yerin 7 kilometr dərinliyində olub.

Yeraltı təkanlar nəticəsində xəsarət alan olmayıb. Dağıntılar barədə məlumat verilmir.

Qeyd edək ki, Türkiyə seysmik cəhətdən aktiv ərazidə yerləşir.

# Parolunuzu necə qırırlar?

## Təhlükəsizlik üçün bunlara əməl edin

İnternet istifadəçilərində narahatlıq doğuran məsələlərdən biri də parollardır. Şifrələr özəl məlumatların təhlükəsizliyi və qorunması baxımından çox önəmlidir.

Yəqin ki, bir çoxlarınız parolların xakerlər tərəfindən sındırılıb, şəxsi hesablara daxil olduqlarından xəbərdarsınız. Bu mövzuda hər birimizi düşündürən sual isə məhz budur: "Parollarımızı necə qırırlar?"

Bunun üçün xakerlər xüsusi metodlardan istifadə edirlər ki, bu da 6 mərhələdən ibarətdir.

**İlk təxmin.** Bu mərhələdə ilk ağla gələn variantlar yoxlanılır. Bu mərhələ nisbətən asan və sadəliyi ilə seçilir. Buraya 123456, qwerty, meymun, prenses, beysbol, şifrə, hunter2 kimi parollar daxildir. Əgər parolunuz bu və ya buna oxşardırsa, xaker hücumu olmadan dəyişdirsəniz daha yaxşı olar.

**Zor gücü ilə.** Xakerlər mümkün bütün üsulları yoxlayırlar. Çətin və uzun olsa da, "uğur" əldə edən xakerlər də olur. Əgər siz kifayət qədər mürəkkəb, hərf, rəqəm, simvollardan istifadə etmisinizsə, o zaman çox da narahat olmayın.

**Hiylə.** Bu məqamda günahkar da, qurban da istifadəçi özü olur. Xakerlər çox güclü hiylə işlədərək, istifadəçidən elektron poçtda təhlükəsizlik üçün şifrənizi yenidən təqdim etməyinizi istəyir. Nəticədə, istifadəçinin hədiyyə etdiyi paroldan rahat şəkildə faydalanır.

**Fürsət.** Xakerlər saxta, uzun müddət istifadə olunmayan, təhlükəsiz qaydalarına tam əməl etməyən hesabları asanlıqla ələ keçirirlər. İstifadəçilər çox vaxt müxtəlif hesabları unutmamaq üçün eyni şifrəni tətbiq edirlər. Xaker bir dəfə parolu kəşf etməklə eyni anda bütün hesablarına daxil ola bilir. Bu baxımdan hər hesabınız üçün fərdi şifrə təyin edin.

**Xüsusi proqramlar.** Şifrə qırmaq üçün xakerlər pullu proqramlardan istifadə edirlər. Qiyməti baha olan, adətən adı çox ciddi qorunan bu proqramlar vasitəsilə əziyyət çəkmədən məsələni həll edirlər. Hətta wi-fi parollarını qırmaq üçün bir sıra pulsuz və rahat tapılan proqramlar da var.

**Standart kodlar.** Bəzən xüsusi kodlar olur ki, onları tuşladıqda avtomatik olaraq şifrə göstərilir. Xüsusi qruplara bölünən bu kodlar simvollardan, rəqəmlərdən ibarət olması ilə seçilir.

Xakerlər çox vaxt gördükləri bu işdən pul qazanırlar. Hətta bununla bağlı xüsusi xidmətlər də yaradılıb. Son zamanlar isə "instaqram", "facebook", "whatsapp" şifrələnin sındırılmasına xüsusi maraq yaranıb. Onlar tanıtım kampaniyalarını da məhz sosial şəbəkələr, xüsusən də "instaqram"dan edirlər.

Bəzi xakerlər isə sırf maraq üçün, ya da şəxsi bilgilər, gizli məlumat etmək üçün bunu edirlər. Əsasən məşhur insanların hesablarının da tez-tez şahidi oluruq. Son zamanlar daha çox artan bu cür hadisələrdən qorunmaq üçün isə yeganə çıxış yolu çox gizli, mürəkkəb və hər hesabın özünə uyğun şifrələr təyin etmək lazımdır. Xakerlərin nə zaman və necə bir həmlə edəcəyindən heç kəs xəbərdar deyil. Ona görə də "sığortalanmaqda" fayda var. Buna görə də şifrə seçərkən çox diqqətli olmaq lazımdır.

Bəs xaker hücumlarından qorunmaq üçün hansı qaydalara əməl etməliyik?




Şəxsi məlumatların mövcud olduğu hesabların parollarını çox insana deməyin.

Sadə sözlərdən ibarət olan şifrə təyin etməyin.

Şifrənizi kifayət qədər uzun, mürəkkəb, rəqəm və simvollar əsasında seçin.

Parolunuzu istəyən hər sorğuçuya verməyin. Xüsusi saytlar var ki, onlar sırf bu məqsədi güdürlər.

Daxil etdiyiniz şifrəni yaddaşa verməyin. Sizə parolunuzu daxil etdikdə, sual verirlər: "yadda saxlanılsın?"

Müxtəlif hesablar üçün eyni parolu istifadə etməyin. Bu zaman qırılan parollarla bütün hesablarınıza daxil olmaq mümkün olur.

Parolunuzu tez-tez dəyişdirin. Mütəmadi olaraq eyni paroldan uzun müddət istifadə etməyin. Parolunuzu tez-tez yeniləyin.

Parolunuzu sırf özünüzə aid məlumatlarla təyin etməyin. Xüsusilə, ad, soyad və təvəllüd.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Kompleks Qazma İşləri Tresti

**Preventorların idarəetmə pultuna olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26019-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 24.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 01.05.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 (altmış) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1033, Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105
Kompleks Qazma İşləri Tresti
**Əlaqələndirici şəxs:**
Hüseynov Anar
Kompleks Qazma İşləri Tresti, Maddi-texniki təchizat və marketinq şöbəsinin rəis müavini
Telefon: (+99 412) 521-31-59, (+99 450) 842-60-39
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 01.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**




*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Kompleks Qazma İşləri Tresti

**Preventorlar üçün pnevmatik qayka açarlarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26024-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 24.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 01.05.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 (altmış) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1033, Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105
Kompleks Qazma İşləri Tresti
**Əlaqələndirici şəxs:**
Hüseynov Anar
Kompleks Qazma İşləri Tresti, Maddi-texniki təchizat və marketinq şöbəsinin rəis müavini
Telefon: (+99 412) 521-31-59, (+99 450) 842-60-39
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 01.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## İnformasiya Texnologiyaları və Rabitə İdarəsi

**SOCAR-ın tələbatını ödəmək məqsədilə Günəş batareyasından qidalandırma sistemi üçün lazım olan avadanlıqların satın alınması üçün açıq satınalma müsabiqəsi (23007-19) elan edir.**

***1. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 23.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***2. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla ayrı-ayrı bağlanmış və möhürlənmiş zərflərdə 26.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***3. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dillərində əldə etmək istəyənlərhər 118,00 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın 1-ci qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***4. Müqavilənin icra müddəti:***

Satınalınan malları 60 iş günü ərzində çatdırılması tələb olunur.

***5. Satınalan təşkilatın ünvanı:***
AZ 1029, Azərbaycan Respublikası, Bakı şəhəri, Heydər Əliyev prospekti, 113

**Əlaqələndirici şəxs:**
Hüseynov Nurlan
Təchizat şöbəsinin böyük mühəndisi
Telefon nömrəsi: +994 12 521-05-72, 050 842-32-16
Faks nömrəsi: +994 12 521 05 72
Elektron ünvan: nurlan.huseynov@socar.az

***6. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***7. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 26.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:30-da elanın 5-ci qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***8. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**İnformasiya Texnologiyaları və Rabitə İdarəsinin Satınalmalar qrupu**

---

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Ekologiya İdarəsi

**qazma tullantılarının daşınması üçün konteynerlərin yükləmə və boşaldılması üçün polad burazları təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (21001-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 01.04.2019-cu il (ən geci müsabiqə təkliflərinin təqdim olunmasının son tarixindən 7 iş günü əvvəl), Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 08.04.2019-cu il, Bakı vaxtı ilə saat 09.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 59 manat və ya ekvivalent məbləğdə (ƏDV daxil) sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 08:00-dan 17:00-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təklifin təminatı (nəzərdə tutulmur):***
Müsabiqə təklifi ilə birlikdə müsabiqənin əsas şərtlər toplusunda müəyyən olunmuş digər sənədlərlə yanaşı müsabiqə təklifinin qiymətinin __ faizi məbləğində müsabiqə təklifinin təminatı təqdim edilməlidir.
Təminatın növü və qüvvədə olma müddəti əsas şərtlər toplusunda göstəriləcəkdir.V. Müqavilənin icra müddəti:
* Satınalma müqaviləsinin 45 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1029______________________(indeks nömrəsi);
Bakı şəhəri______________________(yerləşdiyi şəhər);
Nərimanov rayonu_______________ (yerləşdiyi inzibati rayon və qəsəbə);
H.Əliyev pr.121________________(yerləşdiyi küçə və ya prospekt);
"SOCAR TOWER" 12-ci mərtəbə___(yerləşdiyi bina, mərtəbə).

**Əlaqələndirici şəxs:**
Mirzəyev İsmayıl __________________ (soyadı və adı).
Marketinq və satınalmalar şöbəsinin rəisi _(struktur bölmənin və vəzifənin adı)
+(994) 012 521 08 17 _____ (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
+(994) 012 521 08 19 _____ (əlaqələndirici şəxsin korporativ faks nömrəsi)
İsmayil.Mirzeyev@socar.az _(əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 08.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Ekologiya İdarəsinin Satınalmalar qrupu**

# Mitinqlər çirkli "ssenariləri" reallaşdırmaq üçün bəhanədir



Ötən əsrin 90-cı illərində ölkədəki xaos və anarxiyadan istifadə edərək populist çıxışları ilə xalqı aldadaraq hakimiyyəti zəbt edən, bir ildən sonra isə bir polkovnikin hədə-qorxusu kabinetləri qoyub qaçan, gizlənməyə deşik axtaran komandanın üzvlərindən olan AXCP sədri Əli Kərimlinin və dağıdıcıların "Milli Şura"sının rəhbəri Cəmil Həsənlinin sosial şəbəkələrdəki yeni mitinq anonslarına reaksiya verən yoxdur. Çünki hər kəsə yaxşı bəllidir ki, onların bu mitinq çağırışlarının arxasında şəxsi ambisiyalarına, merkantil maraqlarına xidmət edən nəsnələr var. Hamıya aydındır ki, Ə.Kərimli və onun ətrafındakılar insanlarda ikrah hissi doğuran öz antimilli fəaliyyətləri ilə 1992-93-cü illərin eyforiyası ilə yaşayaraq yenə də ölkəni xaos, anarxiya girdabına, cinayətkarlıq meydanına sürükləmək, bu fürsətdən yararlanaraq xalqın malını, dövlətin əmlakını yağmalamaq, respublikanı viran etmək istəyirlər. Dağıdıcılar öz mənfur niyyətlərini gerçəkləşdirmək üçün antiazərbaycan dairələrdən aldıqları pul və sifarişlərdən vəcdə gələrək böhtan və yalanlarla, beş-on nəfərin toplaşdığı mitinqlərdəki aqressiv şüar və plakatlarla cəmiyyətdə qarşıdurma yaratmaq üçün min bir fırıldağa, ən çirkin vasitələrə əl atsalar da, heç nəyə nail ola bilmirlər. Çünki inkişaf, tərəqqi, sabitlik tərəfdarı olan xalqımız dağıdıcıları birmənalı olaraq rədd edir.

Böyük siyasətdən dəm vuran, lakin siyasətin "s"indən belə xəbəri olmayan radikal müxalifət "liderləri" özlərini azadlıq, demokratiya "aşiqləri" kimi cəmiyyətə sırımağa çalışsalar da, onların sosial şəbəkələrdəki çıxışları, eləcə də yanvarın 19-da "Məhsul" stadionunda keçirdikləri mitinq zamanı səsləndirdikləri şüarlar bir daha təsdiq edir ki, Ə.Kərimli, C.Həsənli və onların ətrafındakılar siyasi mübarizədə etik normalara, sivil qaydalara əməl etmək təfəkkürünə sahib deyillər. Onların ən böyük uğursuzluqlarının və marginallaşmalarının səbəblərindən biri də sosial bazalarının, dövlətçilik təfəkkürlərinin olmamasıdır. Məhz buna görə də onlar hələ də ötən əsrin 90-cı illərinin eyforiyası ilə yaşayaraq bu siyasi savadsızlıqları üzündən cəmiyyətə müasir çağırışlara uyğun yeni ideyalar təqdim edə bilmirlər. Əksinə, siyasi mübarizənin dinc və demokratik üsullarından imtina edərək bolşeviksayağı metodlarla hərəkət edərək radikalizmə üstünlük verirlər. İstər yanvarın 19-dakı mitinqdə, istərsə də bundan əvvəlki aksiyalarda onların qaldırdıqları plakatlar, səsləndirdikləri ultimativ şüarlar, öz antimilli məqsədlərini reallaşdırmaq üçün istifadə etdikləri metodlar, Azərbaycan əleyhinə hazırlanan layihələrdəki iştirakları bunu tam çılpaqlığı ilə ortaya qoyur.

Antiazərbaycan dairələrdən aldıqları sifarişlər hesabına mitinqlər mövsümünün başladığını elan edən, sosial bazadan, cəmiyyətin dəstəyindən məhrum olan, marginallaşmış dağıdıcı müxalifətin liderləri öz çirkin niyyətlərindən əl çəkməyən Ə.Kərimli, "Milli Şura"nın sədri C.Həsənli və onların "əqidədaşlarından" olan Tofiq Yaqublu, Qənimət Zahid, Gültəkin Hacıbəyli kimilər sosial şəbəkələrdə hakimiyyəti mitinqdən qorxmaqda, polisin ölkə paytaxtında guya mitinqçilərə qarşı səfərbər olmaqda günahlandıran çıxışlar edirlər. Əslində isə belə deyil.

"Milli Şura"nın yanvarın 19-da "Məhsul" stadionundakı mitinqindən sonra baş verənlərə diqqət etmək kifayətdir. Belə ki, dağıdıcılar mitinqdən sonra təhrikedici şüarlar səsləndirərək əsl niyyətlərini ortaya qoyub paytaxtda asayişi pozmağa, iğtişaşlar törətməyə cəhdlər etdilər. Şübhəsiz, onların bu cür qanunazidd hərəkətlərinin qarşısı hüquq mühafizə orqanları tərəfindən vaxtında alındı və antiazərbaycan qüvvələrin əlində alətə çevrilən dağıdıcıların öz çirkin niyyətlərini gerçəkləşdirmələrinə imkan verilmədi. Ermənipərəst qüvvələrin əlində maşaya çevrilən, "demokrat" donuna bürünən dağıdıcılar bilmədilər ki, onların ölkəni anarxiya, xaos girdabına, cinayətkarlığın meydan sulandığı məkana çevirmək cəhdlərinin qarşısı bundan sonra da qətiyyətlə alınacaq.

**Zahid Rza,**
***"İki sahil"***

# Dil öyrənməyin əlverişli metodları

Dil öyrənmək üçün insanda ən əsas həvəs, maraq və səbəb olmalıdır. Çox dil bilmək isə mühüm avantaj hesab olunur. Təbii ki, bu heç də asan olmur. Xüsusən də, çox dil bilmək istəyənlər bunun daha asan və sadə yollarını axtarırlar.

Bəs bunun üçün hansı qaydalara əməl etmək lazımdır?

* **Söz ehtiyatı.** Dilin lüğət tərkibindən xəbərdar olmaq çox önəmlidir. Sözlərdən hər gün əzbərləməlisiniz. Müəyyən sayda söz öyrəndikdən sonra onları təkrar etməlisiniz. Bu daha yaxşı yadda qalmağa kömək edir. Lüğətlər bu məqamda sizin əsas yardımçınızdır. Sözün təkcə tərcüməsini deyil, düzgün yazılış və deyiliş qaydasını da bilmək lazımdır.

* **Öyrənmək istədiyiniz dildə musiqilər dinləyin, filmlərə baxın.** Bu zaman siz bilmədiyiniz sözləri tapıb, öyrənəcəksiniz. Bu da söz ehtiyatını formalaşdırmaq üçün köməkdir.

* **Bir dilin lüğət tərkibi qədər, onun qrammatikasını bilmək də vacibdir.** Lüğətlə söz ehtiyatın zənginləşir, lakin bu sözlərdən düzgün cümlə qurmaq, fikrini aydın çatdırmaq üçün qrammatika da mühümdür.

* **"Conversation club" (söhbət klubları) burada kiçik debatlar, müzakirələr, söhbətlər edilir.** Bunun nəticəsində, tez cümlə qurmaq qabiliyyəti formalaşır.

* **Oxumaq.** Həmin dildə mətnlər oxumaq. Xüsusən də sadədən mürəkkəbə doğru artan kitablar oxumaq daha faydalıdır.




* **Tələffüz.** Bu həmin dilin diksiyasına uyğunlaşmağa kömək edir. Ən vacib olan isə sözlərin düzgün tələffüz qaydasını bilməkdir.

* **Əgər sıfırdan başlayırsınızsa, yaxşı olardı ki, bu zaman daha yaxşı bilən biri sizə əvvəldə tədris etsin.** Onlayn dərsləri izləyin. Bir suala cavab tapmadan digərinə keçməyin.

* **Davamlı edin.** Fasilə versəniz öyrəndikləriniz də yadınızdan çıxacaq. Bunun üçün də hər gün qısa da olsa həmin dili öyrənməyə vaxt ayırın.

* **İşləklik.** Dildən istifadə edin. Mütəmadi olaraq gündəlik danışıqda o dildə danışın. Zaman keçdikcə bu sizdə adət halını alacaq.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

# Paşinyan özü deyir, özü eşidir...



**Sevinc Azadi**

## İŞĞALÇI ÖLKƏNİN REGİONAL TƏCRİDİ DƏRİNLƏŞİR

Ötən əsrin 90-cı illərində torpaqlarının 20 faizi işğal edilən, humanitar fəlakətlə üz-üzə qalan Azərbaycan bu gün Ermənistanı regionda təcrid vəziyyətinə salaraq, həyata keçirdiyi regional və qlobal iqtisadi layihələrdən kənarda saxlayaraq, işğalçı dövlətin ağır sosial-iqtisadi böhran keçirməsinə, siyasi səhnədə ardıcıl məğlubiyyətlərlə üzləşməsinə, beynəlxalq əlaqələrində uğursuzluq yaşamasına nail olub. Təbiidir ki, dünya dövlətləri regionda daxili problemləri ilə mübarizə apara bilməyən Ermənistandansa həyata keçirdiyi layihələrlə beynəlxalq arenada özündən dəfələrlə söz etdirən Azərbaycanla əlaqələri inkişaf etdirməkdə, iqtisadi əməkdaşlıq münasibətlərini daha da genişləndirməkdə maraqlıdır. Ona görə də hazırda Ermənistan maliyyə yardımı üçün müraciət etdiyi ölkə və təşkilatlardan rədd cavabı almaqdadır. Vəziyyət o həddə çatıb ki, işğalçı ölkənin baş naziri Nikol Paşinyan israrlı xahişləri müqabilində bir dövlət üçün olduqca kiçik sayıla biləcək məbləğlə yola salınır.

Hər ötən gün Ermənistanda yeni hakimiyyətdən xalqın narazılığı daha da artmaqdadır. Erməni xalqı artıq anlayır ki, Nikol Paşinyan vəd etdiyi yüksək rifahı, demokratiyanı, inkişaf etmiş cəmiyyəti təmin etmək iqtidarında deyil. Paşinyan hakimiyyətdə olduğu müddət ərzində heç nəyə nail ola bilməyib. Sadəcə meydan, küçə ritorikasını davam etdirib ki, bu da əlbəttə, onsuz da problemlər içində çabalayan erməni xalqını daha çətin duruma salıb. Paşinyan sanki hələ də özünü meydanlarda hiss edir, populist bəyanatlarını davam etdirir, boş vədlər verir, iqtisadi inqilabdan danışır.

Respublika partiyasının mətbuat katibi Eduard Şarmazanov hesab edir ki, ölkədə hər şey qarışıb: "Əmək haqqının yüksəldilməsi və iş yerləri yaratmaq vəd edilirdi, amma optimallaşdırma və iş yerlərinin ixtisarı baş verdi. Sevgi və həmrəylik vəd edirlər, ancaq nifrət yayırlar. Vəd edirlər ki, qisas olmayacaq, amma siyasi həbslər həyata keçirirlər. Bu sıranı uzun müddət davam etdirmək olar. Qanunun aliliyini vəd edirlər, amma öz ölkəsinin polis məntəqəsini ələ keçirmək üçün terror aktlarında iştirak edənləri amnistiyaya saldılar. Onlar azad şəkildə Ermənistanda siyasi fəaliyyətlə məşğul ola bilirlər. Bu, absurddur".

Xatırladaq ki, Paşinyan yenidən ölkədə iqtisadi inqilab elan edib. O deyib ki, ölkədə siyasi inqilab baş tutdu, indi isə iqtisadi inqilabın zamanıdır. Əslində, bu fikri Paşinyan elə 10 aydır ki, deyir, nəticə isə yoxdur. Ermənistan mediası da bu proqramı kəskin tənqid edir. Özləri qeyd edirlər ki, hansı resursla, maliyyə və investisiya ilə iqtisadi inqilab etmək mümkündür? Ermənilər açıq qeyd edirlər ki, yaranan vəziyyət Azərbaycanın bu ölkəyə qarşı tətbiq etdiyi iqtisadi və nəqliyyat blokadasının təsirindən yaranıb. Belə olduğu təqdirdə, fikirlər səsləndirilir ki, Dağlıq Qarabağ danışıqları ətrafında yeni situasiya yaranıb. Aydındır ki, Paşinyan 5 illik iqtisadi inqilabi dəyişikliyə nail olmaq üçün Azərbaycan torpaqlarını işğaldan azad etməlidir. Əks təqdirdə, bu proqramı yerinə yetirmək mümkün deyil. Erməni mediası bu reallığı anladığı üçün Nikol Paşinyanın ölkə daxilində əcinə ovuna çıxdığını yazır.

Nikol Paşinyan hökumətini biabır edən iqtisadi rəqəmlərin açıqlanması daha acınacaqlı mənzərə yaradır. Ermənistan Milli Statistika Komitəsinin məlumatlarına əsasən, 2019-cu ilin yanvarında ixrac 2018-ci ilin yanvarı ilə müqayisədə 15,8 faiz azalıb. İdxal isə 3,3 faiz azalıb. Bununla da ticarət dövriyyəsində ixrac və idxal arasındakı fərq daha da artıb. Yanvarın sonuna olan məlumata əsasən, Ermənistandan ixracın həcmi 145,4 milyon, idxal isə 317,3 milyon dollar təşkil edib.

# Erməni vandalizmi sərhəd tanımır



Sovet dövlətinin rəhbəri Vladimir Lenin Bakı neftini ələ keçirmək planı ilə 1917-ci il dekabrın 16-da daşnak Stepan Şaumyanı Qafqaz regionu üzrə fövqəladə komissar təyin edərək Tiflisə göndərdi. Onun məqsədini anlayan gürcülər Şaumyana təzyiq göstərərək orada qalmasına imkan vermədilər. Tiflisdən qovulan Şaumyan Bakıya gəldi. Bolşeviklər Bakıda hakimiyyəti ələ keçirmək və guya Azərbaycanda sosializm qurmaq adı ilə erməni daşnaklarının silahlı qüvvələrini hər tərəfdən gətirib şəhərdə cəmləşdirdilər, sonra qısa müddətdə onları azərbaycanlıların soyqırımına hazırladılar. 1918-ci il martın 31-də Bakı şəhərində azərbaycanlıların kütləvi qırğını başlandı və bir neçə ay davam etdi.

O illərdə Bakıda yaşamış və işləmiş, eyni zamanda, dəhşətli qırğınların və talanların şahidi olmuş Kulner soyadlı bir alman 1925-ci ildə Bakı hadisələri barədə bunları yazmışdı: "Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər".

Ümumiyyətlə, XX əsrin birinci yarısında Zaqafqaziyada baş vermiş iki qırğın zamanı (1905-1907-ci illər, 1918-1920-ci illər) 2 milyona yaxın azərbaycanlı, ermənilər tərəfindən qətlə yetirildi, öz ev-eşiyindən zorla qovuldu.

Mart qırğınları zamanı Bakı şəhərinin təkcə bir yerində qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 azərbaycanlı qadınının meyiti tapılmışdı. Gənc qadınların diri-diri divara mıxlanması, ermənilərin hücumundan qurtarmağa çalışan iki min nəfərin yerləşdiyi şəhər xəstəxanasının yandırıldığı da bu dəhşətli faktlar sırasındadır. Qaçıb canını qurtarmağa çalışan əhalini güllələbaran etmək üçün isə ermənilər şəhərin strateji nöqtələrində əvvəlcədən pulemyotlar yerləşdirmişdilər.

İrəvan quberniyası, Şərur-Dərələyəz, Gəncə, Sürməli, Qars və digər ərazilərdə azərbaycanlıların qırğınının fəal iştirakçılarından biri olmuş erməni zabiti Ovanes Apresyanın xatirələri əsasında amerikalı aqronom Leonard Ramsden Hartvill "İnsanlar belə imişlər" adlı kitab yazıb. Ovanes Apresyan kitabın müəllifi ilə söhbəti zamanı ermənilərin ingilislərin və Rusiyanın yardımı ilə öz məqsədlərinə çatdıqlarını qeyd edərək təkcə Bakıda Mart qırğını zamanı iyirmi beş min azərbaycanlının qətlə yetirildiyini bildirmişdi.

Daşnakların azərbaycanlılara qarşı soyqırımı yalnız Bakı ilə məhdudlaşmayıb. Təpədən-dırnağadək silahlanmış quldurlar qısa müddətdə Şamaxıda, Qubada, İrəvanda, Zəngəzurda, Qarabağda, Naxçıvanda, Lənkəranda, Göyçayda və Gəncədə azərbaycanlıları soyqırımına məruz qoyublar.

Ümumi qırğınlar zamanı Cavanşir qəzasının 28 kəndi, Cəbrayıl qəzasının 17 kəndi tamamilə yandırıldı, əhalisi ucdantutma məhv edildi. 1918-ci il aprelin 29-da Gümrü yaxınlığında əsasən qadınlardan, uşaqlardan və yaşlılardan ibarət 3 min nəfərlik azərbaycanlı köçü pusquya salınaraq son nəfərinədək dəhşətli işgəncələrlə məhv edildilər.

Erməni silahlı dəstələri Naxçıvan qəzasının bir neçə kəndini yandırdılar. Zəngəzur qəzasında 115 azərbaycanlı kəndi məhv edildi, 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürüldü. Bütövlükdə bu qəza üzrə 10068 azərbaycanlı öldürüldü və ya şikəst edildi, 50000 nəfər azərbaycanlı doğma yurdundan qaçqın düşdü.

Azərbaycan Xalq Cümhuriyyətinin hökumətinin Fövqəladə İstintaq Komissiyasının materiallarından aydın olur ki, İrəvan quberniyasının 199 kəndində yaşayan 135 min azərbaycanlı məhv edilib, kəndlər isə yerlə-yeksan olunub. Ancaq qırğınlar bunlarla qurtarmadı. Erməni silahlı dəstələri daha sonra Qarabağa yürüş edərək 1918-1920-ci illər arasında Qarabağın dağlıq hissəsində 150 kəndi dağıdaraq əhalisini məhv ediblər. Cəllad polkovnik Hamazaspın "cəza dəstəsi" Qubada, Dəvəçidə, Xaçmazda kütləvi qırğınlar törətdilər. Bu yaxın illərdə Qubada aşkar edilən məzarlıq erməni vəhşiliyini özündə aydın əks etdirir.

1920-ci ilin mayında erməni silahlı dəstələrinin və işğalçı XI qızıl ordunun iştirakı ilə Gəncədə 12 mindən çox azərbaycanlı qətlə yetirilib.

İngiltərənin Baş naziri Lloyd Corc hələ 1920-ci ildə bildirirdi ki, "Zənnimcə, siz erməniləri 8 yaşında təmiz və məsum qız olaraq düşünürsünüz. Belə düşünməklə çox yanılırsınız. Halbuki ermənilər özlərinin son vəhşi hərəkətləri ilə nə qədər qantökən bir millət olduqlarını qeyd-şərtsiz isbat etmişlər".

Keçən zaman bir daha sübut etdi ki, Baş nazirin bu fikri çox sərrast və izahata ehtiyacı olmayan bir həqiqətdir. Çünki ermənilər tərəfindən dəhşətli faciələr əsrin sonlarında Xocalıda, Kəlbəcərdə, Kərkicahanda, Qaradağlıda, Bağanis-Ayrımda, Meşəlidə də törədildi. Lakin bu dəfə qatillər öz çirkin məqsədlərinə çata bilməyəcəklər. Qüdrətli Azərbaycan Ordusu buna imkan verməz.

**Vəli İlyasov,**
***"İki sahil"***

# Qərbin demokratik dəyərlərə ikili standartlardan yanaşma siyasəti




**İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan Azərbaycan milli-mənəvi dəyərlərin dünya mədəniyyətinin inciləri ilə vəhdətdə qorunub saxlanılmasına, təbliğinə, Avropa və Asiya, xristian və müsəlman dünyası ilə ələqələrin güclənməsinə ən böyük töhfə verən ölkədir.**

Birinci Avropa Oyunlarının, İslam Həmrəyliyi Oyunlarının, Formula-1 yarışlarının Bakıda keçirilməsi tolerant, beynəlxalq dəyərlərə önəm verən Azərbaycana inam və etimaddan irəli gəlir. "Bizim üstünlüyümüz ondan ibarətdir ki, həmişə öz yolumuzla gedirik, öz siyasətimizi aparırıq, heç kimin sözü ilə oturub-durmuruq" söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, inkişaf və sabitlik ölkəsi olan Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarda böyük rəğbət qazanıb. Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə çalışır. Bakıda ənənəvi beynəlxalq forumların, konfransların, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu kimi mötəbər tədbirlərin keçirilməsi tolerant Azərbaycanın multikulturalizmin təbliği istiqamətində apardığı siyasətə dünya ictimaiyyəti tərəfindən göstərilən maraq, dəstəkdir. Bir çox dövlət və hökumət başçılarının ölkəmizə davamlı səfərləri, dövlət başçımızın xarici ölkələrdə keçirdiyi görüşlər, Roma Papası Fransiskin ölkəmizə gəlişi də göstərir ki, Azərbaycanda sülh, əmin-amanlıq, təhlükəsizlik hökm sürür, insanlar rahat yaşayır, quruculuq işləri aparılır, beynəlxalq mövqelərimiz möhkəmlənir. Ötən il Azərbaycanla Avropa İttifaqı arasında imzalanan "Tərəfdaşlıq prioritetləri" adlı sənəddə də ölkəmizdə daim inkişafda olan demokratik prinsiplərə sadiqlik yüksək dəyərləndirilmişdir. Xarici siyasət məsələlərində milli maraqlardan çıxış edən, qarşılıqlı əməkdaşlıq formatlarını yaratmaqla regional sülhə töhfə verən Azərbaycan heç vaxt başqa ölkələrin daxili işlərinə müdaxilə etmədiyi kimi böhtanlara da səssiz qalmır, layiqli cavablar verilir. Bu da bir həqiqətdir ki, iqtisadi, siyasi, hərbi cəhətdən güclü olan Azərbaycana qarşı hər hansı ədalətsizlik ikili standartlardan qaynaqlanır.

Bakıda yüksək səviyyəli nümayəndələrin iştirakı ilə keçirilən dini liderlərin sammitində ölkəmiz haqqında deyilənlər də təsdiqləndi ki, Azərbaycanda dini və milli dözümlülüyün zəngin tarixi var. Milliyyətindən, dinindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları ölkə iqtisadiyyatının güclənməsində iştirak edir.

Belə ki, ölkəmizə qarşı hər hansı ədalətsiz, ikili standartlardan yanaşma qəbuledilməzdir. Bu baxımdan "The Washington Post" qəzetinin əməkdaşı Bob Woodwardın "Fear: Trump in the White House" kitabında dövlət başçımızla ələqədar yazılan iddialar yalan və böhtandır. Belə əsassız iddialarla ölkəmiz haqqında "qara piar" kampaniyası aparan xarici ölkələrdəki anti-Azərbaycan dairələr ölkəmizin uğurlu diplomatik ələqələrinə xələl gətirmək istəyirlər. Azərbaycana qarşı təxribat kampaniyasına digər nümunə ABŞ Dövlət Departamentinin 2018-ci ildə dünya ölkələrinin insan haqlarına və fundamental azadlıqlara dair hesabatında Azərbaycan haqqındakı əsassız iddialardır. Ən azından ona görə ki, Dövlət Departamentinin reallıqdan kənar hesabatının yayıldığı zaman Prezident İlham Əliyevin imzaladığı növbəti əfv Sərəncamı ilə 399 nəfər məhkum azadlığa buraxılıb.

Anti-Azərbaycan dairələrin maliyyələşdirdiyi "beşinci kolon"un böhtanları əsasında formalaşan belə "hesabatlar" ilə özünü nüfuzdan salan Dövlət Departamenti yaxşı olardı ki, ölkəmizlə sərhəddə yerləşən Ermənistanda həqiqi mənada pozulan insan haqlarına münasibətini bildirərdi. Ötən ilin aprel-may hadisələrinin məntiqi nəticəsi kimi hakimiyyətə gələn, bir ildən artıq vaxt keçməsinə baxmayaraq xalqa verdiyi vədləri yerinə yetirməyən Ermənistanın baz naziri Nikol Paşinyana qarşı etiraz aksiyalarını, hüquqları pozulan insanları xatırlayardı. Hələ də küçələrdə aksiyalar keçirən əsgər analarının döyülməsinin hansı demokratik prinsiplərə uyğun gəldiyini açıqlayardı. Suriyalı balaca mühacir Aylin Kürdinin dəniz sahilində, qumlar üzərində qalan cəsədinə ikrahla, istehza ilə baxan "demokrat avropalıların" insan haqlarına münasibətinə qiymət verərdi. Ermənistanın işğalçılıq siyasəti nəticəsində evlərini tərk etməyə məcbur olan azərbaycanlı qaçqınların pozulan hüquqlarını hesabatlarında qeyd edərdi.

Ötən illərdə Norveçdə qatı milliyyətçi Andres Breyvik adlı bir qatilin törətdiyi terror aktına münasibət bildirməyən ABŞ Dövlət Departamenti Azərbaycanda zərrəbinlə "insan hüquqlarını" araşdırır. Osloda hökumət binalarının yerləşdiyi ərazidə partlatdığı bomba ilə 7 insanın həyatına son qoyan qatil 2 saat sonra iqtidardakı İşçi Partiyasının Utoya adasında keçirdiyi tədbirdə iştirak edən, yaşları 14-19 arasında olan və türklərin çoxluq təşkil etdiyi düşərgəyə gələrək daha 85 gənci öldürən, 90 nəfəri yaralayan, ən acınacaqlısı isə törətdiyi əməldən peşman olmayan, " Bu, hələ başlanğıcdır. Hamınız ölməyə məhkumsunuz" deyə qışqıran Breyvikə haqqı qazandıran "Human Rights Watch", "Freedom House" "Forum-18" kimi, ABŞ Dövlət Departamenti də Xocalı soyqırımına etinasız münasibətini təkrarladı, bu qətliamı "görmədi."

İllərdən bəri Ştatlarda milli zəmində baş verən Ferqyuson hadisələri, Quantanamo həbsxanasında saxlanılanların pozulan hüquqları elə Dövlət Departamentinin birbaşa gözləri qarşısında baş verən cinayətlər idi. Dərisinin rənginin qara olduğu üçün polislər tərəfindən döyülən, işgəncələrə məruz qalan, qətlə yetirilən zəncilər sanki insan deyildirlər.

Birləşmiş Ştatların Baltimor şəhərində həbs olunan 25 yaşlı Freddi Qreyin ölümü, Missuri ştatının Sent Luis şəhərində 23 yaşlı qaradərilinin, Oklahoma ştatının Tulsa şəhərində 44 yaşlı Erik Harrisin qətli ABŞ-da irqi ayrı-seçkiliyin davamlı olmasının, pozulan insan hüquqlarının nümunəsidir.

Avropanın mərkəzində, Almaniyada qeyri-millətlər, miqrantlar, xüsusilə də türklər " dazbaşlar" tərəfindən döyülür, söyülür, təhqir olunur.

Fransada aylardan bəri davam edən "sarı gödəkcəlilər"in aksiyaları polislərin dəyənəkləri ilə yatırılır, iştirakçılar həbs olunur. Demək bu kimi halları da "insan hüquqlarının qorunması kimi dəyərləndirən", demokratik prinsipləri siyasi alverə çevirən, bəzi dövlətlərə təzyiq vasitəsi kimi istifadə edən beynəlxalq təşkilatların karlığı və korluğu yeri gələndə işə yarayır.

Görünür dünyada yenidən formalaşan dəyərlər sisteminin tələblərinə uyğun "hesabatlar" hazırlayan beynəlxalq təşkilatların "araşdırmalarında" qeyri-ədalətli yanaşma, qeyri-bərabərlik, riyakarlıq, yalan, böhtan demokratik prinsiplər kimi qəbul olunur.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Ekologiya İdarəsi

**Kompleks Tədqiqatlar Laboratoriyası üçün tələb olunan kimyəvi qazları təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (21003-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 05.04.2019-cu il (ən geci müsabiqə təkliflərinin təqdim olunmasının son tarixindən 7 iş günü əvvəl), Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanına təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 15.04.2019-cu il, Bakı vaxtı ilə saat 09.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 59 manat və ya ekvivalent məbləğdə (ƏDV daxil) sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 08:00-dan 17:00-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təklifin təminatı ( nəzərdə tutulmur):***

Müsabiqə təklifi ilə birlikdə müsabiqənin əsas şərtlər toplusunda müəyyən olunmuş digər sənədlərlə yanaşı müsabiqə təklifinin qiymətinin __ faizi məbləğində müsabiqə təklifinin təminatı təqdim edilməlidir.

Təminatın növü və qüvvədə olma müddəti əsas şərtlər toplusunda göstəriləcəkdir.

***V. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 365 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1029_______________________(indeks nömrəsi);
Bakı şəhəri_______________________(yerləşdiyi şəhər);
Nərimanov rayonu_______________ (yerləşdiyi inzibati rayon və qəsəbə);
H.Əliyev pr.121____________________(yerləşdiyi küçə və ya prospekt);
"SOCAR TOWER" 12-ci mərtəbə___(yerləşdiyi bina, mərtəbə).

**Əlaqələndirici şəxs:**

Mirzəyev İsmayıl ___________________ (soyadı və adı).
Marketinq və satınalmalar şöbəsinin rəisi _(struktur bölmənin və vəzifənin adı)
+(994) 012 521 08 17 ______(əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
+(994) 012 521 08 19 ________(əlaqələndirici şəxsin korporativ faks nömrəsi)
İsmayil.Mirzeyev@socar.az _ (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 15.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Ekologiya İdarəsinin Satınalmalar qrupu**

---

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Ekologiya İdarəsi

**Ekoloji Ölçmə Mərkəzi və Kompleks Tədqiqatlar Laboratoriyasını tələb olunan ölçmə cihazları və laboratoriya malları ilə təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (21004-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 24.04.2019-cu il (ən geci müsabiqə təkliflərinin təqdim olunmasının son tarixindən 7 iş günü əvvəl), Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanına təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 02.05.2019-cu il, Bakı vaxtı ilə saat 09.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 118 manat və ya ekvivalent məbləğdə (ƏDV daxil) sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 08:00-dan 17:00-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təklifin təminatı ( nəzərdə tutulmur):***

Müsabiqə təklifi ilə birlikdə müsabiqənin əsas şərtlər toplusunda müəyyən olunmuş digər sənədlərlə yanaşı müsabiqə təklifinin qiymətinin __ faizi məbləğində müsabiqə təklifinin təminatı təqdim edilməlidir.

Təminatın növü və qüvvədə olma müddəti əsas şərtlər toplusunda göstəriləcəkdir.

***V. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 90 təqvim günü yerinə yetirilməsi tələb olunur.VI. Satınalan təşkilatın ünvanı:

AZ1029_______________________(indeks nömrəsi);
Bakı şəhəri_______________________(yerləşdiyi şəhər);
Nərimanov rayonu_______________ (yerləşdiyi inzibati rayon və qəsəbə);
H.Əliyev pr.121____________________(yerləşdiyi küçə və ya prospekt);
"SOCAR TOWER" 12-ci mərtəbə___(yerləşdiyi bina, mərtəbə).

**Əlaqələndirici şəxs:**

Mirzəyev İsmayıl ___________________ (soyadı və adı).
Marketinq və satınalmalar şöbəsinin rəisi _(struktur bölmənin və vəzifənin adı)
+(994) 012 521 08 17 ____ (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
+(994) 012 521 08 19 _______(əlaqələndirici şəxsin korporativ faks nömrəsi)
İsmayil.Mirzeyev@socar.az _ (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 02.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Ekologiya İdarəsinin Satınalmalar qrupu**

iki sahil
VAHİD AZƏRBAYCAN UĞRUNDA!
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 55 (7310) / Cümə, 29 mart 2019-cu il


# Yer üzündə 5 saniyə oksigen olmasa nə baş verər?



**Təssəvvür edin ki, Yer üzündə oksigen bir anlıq yox olur, cəmi 5 saniyəyə. Bəs belə bir şey olsa atmosferdə nələr baş verər? Planetin taleyi necə olar?**

Biz oksigen ilə nəfəs alırıq. Atmosferin təxminən 21 %-i oksigendən, 78 faizi azotdan, qalan hissəsi isə başqa qazlardan ibarətdir. Oksigen atmosferdə məhşur qazlardan olmasa da, lakin o ən vacib olandır. Oksigensiz bitkilər, insanlar və su belə olmazdı. Bu gün planetimizdə mövcud nə varsa, hamısı oksigenin hesabınadır.

Beş saniyə sizin üçün çox az bir müddət kimi görsənə bilər. İnsanların əksəriyyəti 30 saniyə ərzində nəfəslərini rahatlıqla saxlaya bilirlər. Belə bir az müddət orqanizmimiz üçün bir o qədər də əhəmiyyətli olmaya bilər. Bəs belə bir az müddət başqa şeylərə əhəmiyyətsiz ola bilərmi?

Günəş şüaları altında istirahət edərkən siz güclü günəş yanığına məruz qala bilərsiniz. Bizi ultrabənövşəyi şüalardan qoruyan azon təbəqəsi oksigendən ibarətdir. Bu təbəqə olmasa günəş həddindən artıq təhlükəli olar.

Demək olar ki, bütün canlı varlıqların daxili qulağı sözün əsl mənasında parampərça olar. Oksigenin itirilməsi atmosfer təzyiqinin 21 faizinin itirilməsi deməkdir.

Oksigensiz atəş olmaz. Buna görə yanacaqla təchiz edilmiş hər hansı bir vasitə bu prosesi mexaniki enerjiyə çevirmək üçün yanacaq yandıra bilməz. Təyyarələr qəzaya uğrayar və milyonlarca avtomobil yolda qalar.

Gündüz vaxtı hava daha tünd olar. Yer səthinə yaxınlaşdıqda işıq atmosferdə olan zərrəciklərin hesabına aydınlanır. Oksigensiz havada zərrəciklərin sayı azalacaq və günəşli havada səma tünd rəngdə olacaq.

Əgər oksigen 5 saniyə ərzində bütün Yer üzündən yox olsa, Yer üzü təbii fəlakətlər dəyişikliyinə məruz qalar. Oksigensiz beton ilə tikilmiş binalar ilə vidalaşmış olarıq, çünki belə bir tikili həmin dəqiqə darmadağın olar. Oksigensiz beton və şüşə parçalar toza çevrilər.

İstənilən işlənməmiş metal yapışqan halına çevrilər. Bütün bunlar ona görədir ki, metal oksigen ilə təmasda oksid təbəqəsini yaradır. Bu təbəqə olmadan metal sözün əsl mənasında əyilər və yapışqana çevrilər.

Oksigensiz bütün okeanlar hidrogen qazına çevrilər və nəticədə hidrogen qasırğaları başlayar. Bundan başqa, su orqanizmin bir çox hissələrində mövcuddur və belə olduqda insan bədənində olan su buxara çevrilər.

Lakin ən əsası bütün dağ süxurları və Yer kürəsi bütövlükdə toz halına çevrilər. Belə ki, Yer kürəsinin 45 faizi oksigendən ibarətdir. Hətta adi qum dənəsi ən xırda hissəciyə çevrilər.

Buna görə də oksigenin ən vacib kimyəvi element olduğunu yaddan çıxarmaq lazım deyil. Məhz bu elementin hesabına həyat mövcuddur.

**Könül Cavid,**
**"İki sahil"**

# "WhatsApp"da "qara rejim"



**"WhatsApp" messencerinin tərtibatçıları tətbiqin "Android" platforması üçün nəzərdə tutulmuş versiyasında "qara rejim" adlı yeni funksiyanı sınaqdan keçirir.**

**Milli.Az oxu.az-a istinadən xəbər verir ki, bu barədə "WABetaInfo" portalı məlumat yayıb.**

**Yeni funksiya artıq messencerin beta-versiyasında (2.19.82) peyda olub. "Qara rejim"i işə saldıqda, tətbiqin interfeysində işıq qamması dəyişir. Belə ki, fon qara rənglə əvəzlənir, mətnlərin şriftləri isə ağ rəngdə olur.**

**Bu funksiyanın nə vaxt digər versiyalarda istifadəçilərin sərəncamına veriləcəyi barədə məlumat yoxdur.**

# "Real" Hazardla razılığa gəldi



"Çelsi"nin futbolçusu Eden Hazard "Real"a keçməyə yaxındır.

Milli.Az xəbər verir ki, Madrid klubu belçikalı yarımmüdafiəçi ilə razılığa gəlib. "Real" 28 yaşlı oyunçuya illik 15 milyon avro maaş verəcək.

Madrid klubunun London təmsilçisinə isə təxminən 100 milyon avroya yaxın təzminat verəcəyi gözlənilir.

Qeyd edək ki, Hazard bu mövsüm 39 matçda iştirak edib.

# Məşhur futbolçu karyerasını bitirdi



Avstraliya millisinin və "Everton"un sabiq üzvü Tim Keyhill karyerasını bitirib.

Milli.Az xəbər verir ki, bu barədə 39 yaşlı futbolçu "goal.com"a açıqlamasında deyib.

Karyerası ərzində "Everton", "Nyu York Red Bullz", "Milluoll" kimi komandaların şərəfini qoruyan Keyhillin son iş yeri Hindistanın "Camşedpur" klubu olub.

Keyhill, Avstraliya millisində çıxdığı 108 oyunda 50 dəfə fərqlənərək, yığma tarixində ən çox qol vuran futbolçudur.

# "Break-dance" Olimpiya oyunlarına daxil edildi



Beynəlxalq Olimpiya Komitəsi (BOK) "break-dance" rəqsini Olimpiya oyunları proqramına daxil edilməsi barədə qərar çıxarıb. Rəqsli idman növü üzrə yarış ilk dəfə olaraq 2024-cü ildə Parisdə keçiriləcək.

Milli.Az bu barədə oxu.az-a istinadən xəbər verir.

Qeyd edək ki, "break-dance" artıq olimpiya idman növü olaraq 2018-ci ildə Buenos-Ayresdə keçirilən Yeniyetmələrin Olimpiya Oyunlarında debüt edib.

BOK olimpiya oyunlarının sayını artırmaqda israrlıdır. Belə ki, bundan əvvəl Tokioda 2020-ci ildə keçiriləcək Olimpiya oyunlarının proqramına beysbol, karate, sörfinq, skeytbordinq və dağadırmanma kimi yeni idman növlərinin daxil edilməsi ilə bağlı qərar çıxarılmışdı.

## ELAN:

***Azərbaycan Dövlət İqtisad Universiteti Ekspertiza və standartlaşdırma fakültəsinin II kurs tələbəsi (Qrup-334) Kərimova Zeynəb Ceyhun qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.***

Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 29.03.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8287
İndeks: 0151, Sifariş: 1028

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.